

# QANUNÇULUQ

## HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 08 - avqust 2020



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

**№ 08 - avqust 2020**

**TƏSİSÇİ:**

**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyi**



**BAŞ REDAKTOR:**

**Fikrət Məmmədov**

**REDAKSİYA HEYƏTİ:**

**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Cavid Hüseynov**
**Elçin Xələfov**


*”Qanunçuluq” jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*


© “Ədliyyə Nəşriyyat Evi”MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT

Koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə ........4

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Ədliyyə naziri vətəndaşların videoqəbulunu keçirib ....6
Ədliyyə Nazirliyi Mətbuat xidmətinin məlumatı ....6
Hakimlərin Seçki Komitəsinin məlumatı ....7
Məhkum və həbs olunmuş şəxslərin hüquqlarının qorunması diqqət mərkəzindədir ....8
Ədliyyə fəaliyyətinə dair onlayn qaydada ictimai müzakirələr keçirilib ....10

## YENİ QANUNLAR, FƏRMANLAR...

"İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 144-VIQD nömrəli Qanunu ....18
"İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 144-VIQD nömrəli Qanununun tətbiqi və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 avqust tarixli 1122 nömrəli Fərmanı....18
"Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 146-VIQD nömrəli Qanunu ....19
"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 147-VIQD nömrəli Qanunu ....20
"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 148-VIQD nömrəli Qanunu ....21
"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun 152-VIQD nömrəli Qanunu ....23
"Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 153-VIQD nömrəli Qanunu....24
"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 156-VIQD nömrəli Qanunu ....24
"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 156-VIQD nömrəli Qanununun tətbiqi və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 10 avqust tarixli 1126 nömrəli Qanunu ....25
"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 157-VIQD nömrəli Qanunu ....26
"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 157-VIQD nömrəli Qanununun tətbiqi və "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 4 oktyabr tarixli 401 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il10 avqust tarixli 1127 nömrəli Fərmanı ....27
"Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 158-VIQD nömrəli Qanunu ....28
"Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 158-VIQD nömrəli Qanununun tətbiqi və "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 720 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 avqust tarixli 1128 nömrəli Fərmanı ....29
Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Mülki və Vergi Məcəllələrinin, "İpoteka haqqında" və "İcra haqqında" Azərbaycan Respublikası Qanunlarının bəzi müddəalarının əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 23 iyul 2020-ci il tarixli Qərarı ....29

# Koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə



**Avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə keçirib.**

Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açaraq koronavirusa qarşı mübarizə işində müsbət dinamikanın müşahidə olunduğunu, görülən tədbirlər nəticəsində vəziyyətin nəzarət altında saxlanıldığını bildirib, təşkilati məsələlərə toxunaraq xəstəxana fondunun qısa müddət ərzində xəstəliklə əlaqədar vəziyyətə uyğunlaşdırıldığını, həkimlərin yorulmaz fəaliyyəti nəticəsində bu xəstəlikdən ölənlərin sayının aşağı səviyyədə olduğunu qeyd edib. Bildirib ki, bu gün 46 xəstəxana ancaq koronavirus xəstələrinə xidmət göstərir. Həmin xəstəxanalardan 41-i son 17 il ərzində tikilib və ya əsaslı şəkildə təmir edilib, müasir avadanlıqlarla təchiz olunub.

Eyni zamanda adambaşına düşən testlərin sayına görə bu gün Azərbaycanın dünya miqyasında qabaqcıl yerlərdə olduğunu, laboratoriyaların sayının qısa müddətdə 5 dəfə artırıldığını, ölkəmizə yeni təcili tibbi yardım maşınlarının gətirildiyini, modul tipli 9 xəstəxananın istismara verildiyini vurğulayıb, insanların sağlamlığının qorunması üçün bundan sonra da bütün lazımi tədbirlərin görüləcəyini bildirib.

İqtisadi və sosial məsələlərə toxunan ölkə rəhbəri son aylar ərzində nə qədər böyük işlər görüldüyünü diqqətə çatdırıb. Təqribən 5 milyona yaxın insan geniş sosial paketlə əhatə olunub. Dövlət sektorunda çalışan 900 min insanın böyük əksəriyyəti faktiki olaraq işləmir, ancaq dövlət tərəfindən əməkhaqqı alır. 760 min insana lazımi maliyyə dəstəyi göstərilib və onların iş yerləri qorunub.

Həmçinin qeyd olunub ki, altı yüz min işsiz insan, o cümlədən qeyri-formal məşğulluqda fəaliyyət göstərən və müvəqqəti olaraq öz işini itirən, aztəminatlı təbəqəyə aid olan insan dövlət tərəfindən qayğı

ilə əhatə olunub. Onlara artıq bir neçə ay ərzində 190 manat müavinət verilir.

Dövlət başçısı ölkəmizdə çox böyük sosial layihələr həyata keçirildiyini və 2020-ci ildə bu layihələrin həcminin rekord həddə çatdığını söyləyərək həm pandemiya, həm də neftin qiymətinin aşağı səviyyədə olmasının gəlirlərimizə çox mənfi təsir göstərməsinə baxmayaraq nəzərdə tutulmuş bir dənə də olsun sosial layihənin yarımçıq qalmadığını, yaxud ixtisar edilmədiyini vurğulayıb.

Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır, - deyən Prezident İlham Əliyev iqtisadi sahədə biznesə dəstək məsələlərində də çox böyük addımların atıldığını, büdcəyə yenidən baxılaraq dürüstləşmə aparılmasının vacibliyini qeyd edib, Azərbaycan dövlətinin istənilən böhrana hazır olduğunu diqqətə çatdırıb.

Sonra Baş nazir Əli Əsədov koronavirusla bağlı son vəziyyət barədə məlumat verib, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarov isə sosial sahədə, biznesə dəstək sahəsində dövlət başçısının verdiyi müvafiq tapşırıqların icrası üzrə görülmüş və nəzərdə tutulan işlər barədə məruzə ediblər.

Müşavirəyə yekun vuran ölkə başçısı pandemiya ilə əlaqədar görülmüş işlərə bütövlükdə yüksək qiymət verməklə yanaşı, həmçinin qeyd edib ki, karantin rejiminin əsas məqsədi insanları bu xəstəlikdən, onların həyatını, sağlamlığını qorumaq və bu vəziyyətdən az itkilərlə çıxmaqdır.

Müsbət dinamikanın karantin rejiminin yumşalmasına gətirib çıxardığını bildirən Prezident İlham Əliyev diqqətə çatdırıb ki, burada çox ciddi nəzarət mexanizmi olmalı, açılan obyektlərdə bütün sanitar-epidemioloji normalar, sosial məsafə təmin olunmalı, obyektlərdə göstərilən xidmətlər yeni qaydalar əsasında təşkil edilməli, bu məsələyə nəzarət etmək üçün elektron vasitələrdən də istifadə edilməli, indiki şəraitdə, ümumiyyətlə, rəqəmsallaşmaya daha böyük fikir verilməli, həm dövlət, həm də özəl sektor tərəfindən göstərilən xidmətlər də ümumi sistemə inteqrasiya olunmalıdır. Onlayn videomüşahidə sistemləri təmin edilməlidir. Müvafiq dövlət qurumlarının imkanı olmalıdır ki, onlar bu videomüşahidəni aparsınlar, görəndə ki, sahibkarlar bu qaydaları pozur, onda onlar gərək cəzalandırılsın.

Dövlət başçısı həmçinin, sosial dəstəyin bundan sonra da davam etdiriləcəyini, iqtisadi inkişafımızın təmin olunmasının, bu ilin sonuna qədər görüləcək işlərin, xüsusilə, sahibkarlıqla bağlı olan işlərin, eyni zamanda, dövlət şirkətlərinin idarə edilməsi istiqamətində atılacaq addımların bu iqtisadi canlanmanı təmin etməsinin, itkilərin azaldılmasının vacibliyini vurğulayıb, dövlət şirkətlərində itkilərin kifayət qədər böyük olduğunu qeyd edərək, onlara ayrılan vəsaitin o şirkətlərin səmərəliliyi ilə üst-üstə düşmədiyini, israfçılığa yol verildiyini, bəzi hallarda lazım olmayan layihələrin icra edildiyini, yaxud da bu layihələrin icrasına start verildiyini diqqətə çatdırıb. Bu sahədə işin səmərəliliyinin artırılmasını, nəzarətin gücləndirilməsini, dövlət şirkətlərinin işinin ciddi təftiş edilməsini və yeni idarəetmə sisteminin qurulmasını tapşırıb.

Eyni zamanda, sahibkarlar tərəfindən təqdim edilən layihələrin tam təhlil edilməsinin, yumşalma rejimi çərçivəsində daxili turizmin inkişafı, təşviq edilməsi ilə əlaqədar tədbirlər planının hazırlanmasının, iqtisadiyyatın liberallaşdırılmasının, özəlləşdirmə sahəsində daha geniş islahatların aparılmasının, dövlət-özəl sektor tərəfdaşlığında yeni yanaşmanın olmasının, xərclərə dövlət nəzarəti mexanizminin daha da təkmilləşdirilməsinin, ictimai nəzarətin, böyük əhəmiyyət kəsb edən bütün layihələrin icrasında ictimaiyyət nümayəndələrinin iştirakının vacibliyini vurğulayıb, müvafiq göstərişlər verib.

Prezident İlham Əliyev şəffaflıq, dürüstlük, kölgə iqtisadiyyatının əhatə dairəsinin daralması, biznes mühitinin yaxşılaşdırılması və bu istiqamətdə bundan sonra atılacaq addımların həm pandemiya dövründə, həm də postpandemiya dövründə yeni imkanlar qazandıracağına əminliyini ifadə edib, verilən bütün tapşırıqların lazımi səviyyədə yerinə yetirilməli olduğunu vurğulayıb.

# Ədliyyə naziri vətəndaşların videoqəbulunu keçirib

**Ölkə Prezidenti cənab İlham Əliyevin insanlara layiqli xidmət göstərilməsi, onların müraciətlərinə və şəxsi qəbullarına hər zaman qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır.**



Bu məqsədlə nazirlikdə vətəndaşların videoqəbulunun Qaydası müəyyən olunub, COVİD-19 qlobal pandemiyası ilə əlaqədar xüsusi karantin rejimi şəraitində həmçinin, vətəndaşların müraciətlərinə elektron qaydada, o cümlədən sosial media vasitəsilə, habelə "qaynar xətt"lərə edilən müraciətlərinə baxılması təmin edilir, nazirliyin və struktur qurumların rəhbərliyi tərəfindən davamlı olaraq müasir İKT-lər tətbiq olunmaqla videoformatda qəbullar keçirilir.

Bundan əlavə dövlət kommunikasiya siyasətinə uyğun olaraq nazirliyin rəsmi internet saytları və sosial şəbəkə səhifələri vasitəsilə, həmçinin vətəndaş cəmiyyəti institutlarının və KİV-lərin iştirakı ilə ədliyyə fəaliyyətinə dair ictimai maraq kəsb edən mövzularda onlayn brifinqlər, vətəndaşlarla interaktiv formada birbaşa təmasda canlı yayımlar təşkil olunur, sual-cavab sessiyaları keçirilir.

Avqustun 27-də Ədliyyə naziri Fikrət Məmmədov tərəfindən müxtəlif bölgələrdə yaşayan vətəndaşların videoqəbulu keçirilib.

Gəncə, Şəki, Şirvan, Sumqayıt və İmişli regional ədliyyə idarələri vasitəsilə qəbula yazılmış vətəndaşların videokonfrans formatında ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli üzrə zəruri tədbirlərin görülməsi üçün aidiyyəti məsul işçilərə müvafiq tapşırıqlar verilib.

Bölgələrin sakinləri qlobal pandemiyaya qarşı respublika Prezidenti və Birinci vitse-prezident tərəfindən görülən işlərə, əhalinin sağlamlığının və təhlükəsizliyinin qorunması ilə bağlı göstərilən qayğılı və həssas münasibətə görə minnətdarlığını ifadə edib, onların qəbullarının videoformatda təşkilindən məmnunluqlarını bildiriblər.

# Ədliyyə Nazirliyi Mətbuat xidmətinin məlumatı

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çoxpartiyalı sistemin inkişafı, siyasi partiyaların ölkəmizin ictimai həyatında əhəmiyyətinin artırılması, bu sahədə münasibətlərin sağlam zəmində və qarşılıqlı əməkdaşlıq əsasında qurulmasına dair səsləndirdiyi fikirlər daim diqqət mərkəzində saxlanılır.**

Milli Cəbhə Partiyası (MCP) və Respublikaçı Alternativ (REAL) Partiyasının dövlət qeydiyyatına alınması üçün Ədliyyə Nazirliyinə ünvanlanmış müraciətlərinə əsasən təsis sənədlərinin qanunvericiliyin tələblərinə uyğunluğu məsələsi öyrənilmiş və partiyaların qeydiyyata alınması barədə nazirlik tərəfindən qərar qəbul edilmişdir.

Sentyabr ayının 1-də Ədliyyə nazirinin müavini Toğrul

Musayev partiya sədrləri ilə görüşü zamanı onlara dövlət qeydiyyatı haqqında şəhadətnamələr təqdim edərək, dövlət başçısının iradəsilə ölkəmizdə siyasi sistemin və vətəndaş cəmiyyətinin inkişafı istiqamətində önəmli addımların atılmasını xüsusi vurğulamış, son aylar artıq bir neçə partiyanın qeydiyyatdan keçməsini qeyd etmişdir.

Partiya rəhbərləri Razi Nurullayev (MCP) və İlqar





Məmmədov (REAL) siyasi islahatların aparılmasını, demokratik təsisatların inkişaf etdirilməsi sahəsində görülən işləri, başlanmış siyasi dialoqu dəstəklədiklərini, bunların dövlətimizin tərəqqisinə müsbət təsir edəcəyinə dair əminliklərini bildirmişlər.

# Hakimlərin Seçki Komitəsinin məlumatı

**Dövlət başçısının məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında tapşırıqlarına uyğun olaraq vakant hakim vəzifələrinə, o cümlədən yeni ayrılmış hakim ştatlarına namizədlərin seçilməsi prosesi davam edir.**



Növbəti müsabiqə zamanı 200-dən çox hakimliyə namizəddən 44 nəfəri test üsulu ilə, habelə yazılı və şifahi imtahanlardan müvəffəqiyyətlə keçib və yarım il davam edən tədris kursunu, o cümlədən məhkəmələrdə stajkeçməni uğurla başa vurub.

Həmin namizədlərin peşə hazırlığının yoxlanılması məqsədilə tədrisin nəticələri üzrə avqustun 7-də onlarla yazılı imtahan keçirilib. İmtahan karantin rejiminə uyğun olaraq zəruri sosial davranış və sanitar-epidemioloji qaydalar gözlənilməklə Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunub.

İmtahan başlamazdan əvvəl, yerindəcə, Hakimlərin Seçki Komitəsinin qapalı iclasında kazus xarakterli 8 sual hazırlanıb, həmin suallardan cinayət və mülki sahəyə dair tam təsadüfi yolla ikisi seçilib.

Seçilmiş suallar imtahan keçirilən auditoriyada, namizədlərin gözü qarşısında çoxaldılaraq onlara paylanılıb.

4 saat davam edən imtahanda namizədlər verilmiş hüquqi kazusları həll etməklə, müvafiq məhkəmə qərarlarını tərtib etmək bacarıqlarını nümayiş etdiriblər.

***

İmtahan nəticələri Hakimlərin Seçki Komitəsi tərəfindən yoxlanılıb və bütün namizədlərin bilikləri məqbul bilinərək onlar müsabiqənin növbəti mərhələsinə - tədrisin yekunları üzrə şifahi imtahana buraxılıblar.

***

Test üsulu ilə, habelə yazılı və şifahi imtahanlardan keçərək, yarım illik tədris kursunu, məhkəmələrdə stajkeçməni başa vurmuş və tədrisin yekunu üzrə yazılı imtahanı vermiş 44 nəfər hakimliyə namizədin peşə hazırlığının yoxlanılması məqsədilə şifahi imtahan keçirilib.

Karantin rejiminə uyğun olaraq zəruri sosial davranış və sanitar-epidemioloji qaydalar gözlənilməklə təşkil olunmuş imtahanın nəticələrinə Hakimlərin Seçki Komitəsinin iclasında baxılıb, 43 nəfər hakimliyə namizədin növbəti mərhələ olan yekun müsahibəyə buraxılması barədə qərar qəbul edilib, bir nəfər - Əliyev İsa Hüseyn oğlu lazımi bilik nümayiş etdirmədiyindən imtahandan keçə bilməyib.

Ədalət mühakiməsinin səmərəliliyinin artırılması, o cümlədən hakim korpusunda ən layiqli hüquqşünasların təmsil olunması məqsədilə hakimliyə namizədlərin yüksək tələbkarlıq səviyyəsində seçimi prosesi davam edir.

# Məhkum və həbs olunmuş şəxslərin hüquqlarının qorunması diqqət mərkəzindədir

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə insan haqlarının, o cümlədən məhbusların hüquqlarının təmin olunmasına xüsusi diqqət yetirilir, qanunvericilik təkmilləşdirilir, cəza-icra siyasəti humanistləşdirilir, islahatlar aparılır və geniş ictimai iştirakçılıq tətbiq olunur.**

Qlobal COVİD-19 infeksiyasına qarşı dövlət başçısının və respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə görülən qəti tədbirlər çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən zəruri preventiv addımlar atılır, penitensiar və tibb xidmətləri fəaliyyətlərini gücləndirilmiş iş rejimində davam etdirirərək, məhkumların və təqsirləndirilən şəxslərin həyat və sağlamlıqlarının qorunması ciddi nəzarətdə saxlanılmaqla, onların gündəlik termometriyası həyata keçirilir.





Nazirliyin Tibb baş idarəsi fəaliyyətini Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun quraraq Səhiyyə Nazirliyi və TƏBİB ilə sıx əlaqədə penitensiar müəssisələrdə saxlanılan şəxslərin test nümunələri götürülərək laborator analizlərin aparılması təşkil olunub. Virusun göstəriciləri pozitiv çıxan tək-tək məhkumlar dərhal təcrid olunaraq ixtisaslaşdırılmış müalicə müəssisəsində xüsusi yaradılmış şöbəyə yerləşdirilir və intensiv müalicə tədbirləri aparılaraq tam sağaldıqdan sonra karantindən çıxarılırlar. Qeyd olunmalıdır ki, bütün penitensiar müəssisələrdə epidemioloji cəhətdən gərgin mühit yoxdur, nəzarət tədbirləri fasiləsiz davam etdirilir.

Bu sahədə vəziyyət həmçinin, nazirliyin vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət yaradılmış monitorinq qrupu tərəfindən mütəmadi öyrənilir və ötən müddətdə penitensiar müəssisələrdə 65 monitorinq aparılaraq məhbusların saxlanma şəraiti, ərzaq, qida, tibbi və dərman təminatı ilə tanış olunub, qida rasionunun qanunvericiliklə müəyyən edilmiş normalara

uyğunluğu yoxlanılıb, sanitar-gigiyenik vəziyyətə, dezinfeksiya işlərinin aparılmasına xüsusi diqqət yetirilib.

Pandemiya ilə əlaqədar müvəqqəti dayandırılmış məhkumlara sovqat və banderolların ötürülməsi ölkə ərazisində karantin rejiminin yumşaldılması çərçivəsində bərpa olunub. Həmçinin respublikada infeksiyanın yayılmasının getdikcə azalması nəticəsində karantin qaydalarının növbəti dəfə yumşaldılması nəzərə alınaraq sanitar-epidemioloji tələblərə ciddi riayət olunmaqla məhkumlara qısa müddətli görüşlərin verilməsi qərara alınıb. Bununla əlaqədar penitensiar müəssisələrdə mövcud olan qısamüddətli görüş otaqları həmin tələblərə uyğun yenidən qurulub və danışıq qurğuları ilə təchiz edilmiş şüşə arakəsmələr və kabinalar təşkil olunub. Artıq müəssisələrin çoxunda yaradılmış bu şəraitə uyğun məhkum və həbs olunmuş şəxslərə qısa müddətli görüşlərin verilməsinə başlanılıb.

Bununla yanaşı, ailələri ilə əlaqə saxlanılması məqsədilə məhbusların telefon danışıqları imkanları genişləndirilib.

Eyni zamanda, məhkumların cəmiyyətə yenidən inteqrasiyasında mühüm rol oynayan cəzadan vaxtından əvvəl şərti azad etmənin son aylarda tətbiqi daha da intensivləşib, bu sahədə şəffaflığın və obyektivliyin təmin olunması məqsədilə nazirliyin vətəndaş cəmiyyətinin nümayəndələrinin təmsil olunduğu Komissiyası tərəfindən videokonfrans vasitəsilə virtual qaydada mütəmadi iclaslar keçirərək məhkumlarla söhbətlər aparılıb, şəxsi işləri öyrənilib və qanunvericiliyin tələblərinə cavab verən məhkumlar barədə materiallar məhkəmələrə təqdim olunub.

Ölkə başçısının qanunvericilik təşəbbüsü əsasında Cinayət Prosessual Məcəlləsində edilmiş dəyişikiliklərlə artıq cinayət işlərində videokonfransın keçirilməsi bu humanist institutun daha asan, çevik və məhkumların təhlükəsizliyi təmin olunmaqla tətbiqinə əlverişli imkan yaradıb.

Belə ki, 15.07.2020-ci il tarixdən yeni Qanunun qüvvəyə minməsi ilə əlaqədar Nazirlik tərəfindən dərhal zəruri tədbirlər görülərək cinayət işləri üzrə məhkəmə proseslərinin videokonfrans formatında onlayn qaydada keçirilməsinə başlanılıb.

Artıq bu günədək məhkəmələr tərəfindən videokonfrans vasitəsilə 400-ə yaxın, o cümlədən nazirliyin Komissiyasının rəyləri nəzərə alınmaqla cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilmə ilə bağlı göndərdiyi təqdimatlara, habelə cəza siyasətinin humanistləşdirilməsi məqsədilə qəbul edilərək icrasına başlanılmış qanunvericiliyin tətbiqinə dair işlərə baxılıb.

Bu humanist institutların davamlı tətbiqi və bu məsələdə müasir informasiya texnologiyalarının istifadəsi nəticəsində cari ildə 1.727 nəfər vaxtından əvvəl azadlığa buraxılıb və ya yüngül rejimli müəssisəyə keçirilib ki, onların da 80%-ə yaxını, yəni 1.333 nəfəri indiki pandemiya şəraitinə təsadüf edir. Eyni zamanda, 493 həbs edilmiş şəxs, o cümlədən pandemiya dövründə 408 nəfər ev dustaqlığı və digər alternativ qətimkan tədbirlərinin tətbiqi nəticəsində həbsdən azad ediliblər.

Bununla yanaşı, cinayət qanunvericiliyinə edilmiş dəyişikliklərlə bəzi əməllərin dekriminallaşdırılması ilə əlaqədar Penitensiar və Probasiya xidmətləri üzrə 1.000-dək məhkumun işləri öyrənilib və yeni Qanunun təsiri altına düşən məhkumlarla bağlı məhkəmələrə göndərilmiş təqdimatlara baxılaraq artıq 100 məhkum cəzadan tamamilə azad edilib, 211 nəfərin cəza müddəti azaldılıb və ya yüngül cəza növü ilə əvəz edilib , 63 nəfərin əməli yeni maddələrə tövsif edilib.

COVİD-19 qlobal pandemiyası şəraitində məhkum və həbs olunmuş şəxslərin sağlamlığının və təhlükəsizliyinin qorunması ilə bağlı görülən tədbirlər onların ailələri və yaxınları tərəfindən minnətdarlıqla qarşılanır.

Ədliyyə Nazirliyi tərəfindən məhkumların hüquqlarının qorunması üzrə, o cümlədən indki pandemiya şəraitində tədbirlər davam etdirilir.

# Ədliyyə fəaliyyətinə dair onlayn qaydada ictimai müzakirələr keçirilib

## Tibb xidmətinin fəaliyyəti

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə yeni növ koronavirus (COVID-19) pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması ilə bağlı tövsiyə və tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır, bu istiqamətdə genişmiqyaslı tədbirlər fasiləsiz həyata keçirilir.**



Fəaliyyətində hər zaman şəffaflığa, ictimaiyyətlə əlaqələrə xüsusi önəm verən nazirlik tərəfindən vətəndaşların ədliyyə orqanlarına əlçatanlığının təmin olunması, ədliyyə fəaliyyəti barədə mütəmadi məlumatlandırılması məqsədilə həm vətəndaş cəmiyyəti nümayəndələrinin, həm də kütləvi informasiya vasitələrinin, eləcə də nazirliyin rəsmi saytlarının və sosial şəbəkələrdə səhifələrinin imkanlarından geniş istifadə edilir.

Dövlət başçısının tapşırıqlarının icrası istiqamətində xüsusi karantin rejimi dövründə nazirliyin rəsmi "Facebook" səhifəsində davamlı olaraq ədliyyənin ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə canlı yayımların keçirilməsi də məhz əhalinin hüquqi maarifləndirilməsinə xidmət edir. Bu məqsədlə ədliyyə fəaliyyətinə dair onlayn qaydada ictimai müzakirələr keçirilir.

Avqustun 8-də tibb xidmətinin fəaliyyətinə həsr olunmuş ictimai müzakirədə Ədliyyə Nazirliyinin Tibb baş idarəsinin rəis müavini İftixar Qurbanov və Müalicə işinin təşkil idarəsinin rəisi Füzuli Hüseynov iştirak ediblər.

Tədbirdə bildirilib ki, pandemiya dövründə nazirliyin tibb xidməti gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. İdarə fəaliyyətini koronavirusla mübarizəyə səfərbər edib, Operativ Qərargahın qərarlarının, eləcə də Ədliyyə Nazirliyi üzrə verilmiş göstəriş, əmr və sərəncamların icrasına yönəldib.

Qeyd edilib ki, ölkə ərazisinə daxil olan şəxslərdə yeni növ koronavirus infeksiyası aşkarlandığı andan Ədliyyə Nazirliyi tərəfindən genişmiqyaslı tədbirlər planı təsdiqlənib. Bu plan çərçivəsində bütün tabe qurumlarda profilaktik işlərə başlanılıb. Demək olar ki, bütün müəssisələr üzrə sanitar nəzarət postları qurulub. Bu postlar fərdi mühafizə vasitələri, termometrlər, dezinfeksiyaedici avadanlıq və digər vasitələrlə təchiz edilib. Hər bir qurumda infeksiyaya nəzarət üçün lazımi şərait yaradılıb və işlər bu gün də davam etdirilir. Penitensiar müəssisələrə daxil olan bütün nəqliyyat vasitələrinin, ərazinin dezinfeksiyasına başlanılıb. Eyni zamanda, əməkdaşlar, məhkumlar arasında tibbi maska gəzdirməyin, fiziki məsafənin saxlanılmasının əhəmiyyəti, əllərin yuyulması və digər təlimatlar üzrə bütün göstərişlər çatdırılıb.

Xüsusi vurğulanıb ki, bu istiqamətdə işin ən yüksək səviyyədə təşkilini daim ciddi nəzarətdə saxlayan Ədliyyə Nazirliyinin rəhbərliyi tərəfindən maarifləndirmə işinin önəmi diqqətə alınmaqla, hələ ilk vaxtlardan etibarən əməkdaşların bu infeksiya ilə mübarizə istiqamətində məlumatlandırılması, onlara lazımi biliklərin aşılanması ilə bağlı

tabe qurumlara müvafiq göstərişlər verilib. Məhz bu istiqamətdə atılan ilk addımlardan biri kimi, yoluxma faktı aşkarlanacağı təqdirdə həmin şəxslərin dərhal müalicəsinin təmin edilməsi, təmaslara nəzarət olunması, karantin qaydalarına riayət olunmasına diqqət yetirilməsi və digər qabaqlayıcı tədbirləri görmək üçün mütəxəssislər ayrılıb, ixtisaslaşmış müalicə müəssisəsinin nəzdində xüsusi şöbələr müəyyənləşdirilib. Həmin şəxslər Həkimlərin Təkmilləşdirmə İnstitutunda kurslarda iştirak ediblər. Hazırda bu proseslər həyata keçirilir və bütün penitensiar müəssisələrdə epidemioloji cəhətdən gərgin mühit yoxdur, infeksiyaya tam nəzarət olunur. Nəzarət tədbirləri fasiləsiz davam etdirilir. Tibb xidmətinin işi əsasən təmasların müəyyənləşdirilməsinə, infeksiyanın aşkarlanmasına, kontaktların nəzarətdə saxlanılmasına, tək-tək aşkarlanmış yoluxma hallarının müalicəsinin və müşahidəsinin təmin edilməsinə yönəldilib.

## İctimai iştirakçılıq və şəffaflıq

**Ədliyyə sistemində ictimai nəzarətin və şəffaflığın təmin edilməsi məqsədilə 2006-cı il sentyabrın 22-dən Ədliyyə naziri Fikrət Məmmədovun təşəbbüsü ilə formalaşdırılmış qeyri-hökumət təşkilatları və nüfuzlu hüquq müdafiə təşkilatlarının nümayəndələrindən ibarət Ədliyyə naziri yanında İctimai Komitə səmərəli fəaliyyət göstərir.**




Avqustun 10-da "Ədliyyə Nazirliyində ictimai iştirakçılıq və şəffaflıq" mövzusunda onlayn qaydada ictimai müzakirə təşkil olunub.

Tədbirdə iştirak edən İctimai Komitənin koordinatoru, Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsinin rəhbəri Səadət Bənənyarlı və Komitənin üzvü, "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri Əhməd Abbasbəyli nazirlikdə bu istiqamətdə işin təşkili barədə məlumat veriblər.

Bildirilib ki, uğurlu inkişafın təminatında ictimai nəzarətin müstəsna əhəmiyyətini nəzərə alan Prezident İlham Əliyev hər zaman həyata keçirilən tədbirlərdə, dövlət idarəetməsində ictimaiyyəti daha fəal olmağı çağırır. Ədliyyə naziri yanında uzun illərdir fəaliyyət göstərən İctimai Komitənin fəaliyyəti ictimai iştirakçılıq baxımından mühüm əhəmiyyət kəsb edir. 2006-cı ildə formalaşdırılan İctimai Komitə sonralar yaradılan digər belə komitələr üçün nümunə olub. Ondan sonra ictimai iştirakçılıqla bağlı Qanun qəbul edilib. Zaman keçdikcə Ədliyyə Nazirliyinin rəhbərliyinin təşəbbüsü ilə qanunvericiliyin yaratdığı müstəvidə İctimai Komitənin fəaliyyəti genişlənib. Komitə üzvləri ədliyyə sisteminə daxil olan bütün məsələlərə münasibət bildirə, həm də həyata keçirilən tədbirlərdə yaxından iştirak edə bilirlər. Bu komitə hazırda Azərbaycanda tanınmış ictimai komitələrdən biridir, digər qurumlar da bu təcrübədən istifadə edirlər.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin vətəndaş cəmiyyəti nümayəndələrinə, KİV-lərə ictimai nəzarətin gücləndirilməsi ilə bağlı son müraciətləri günün tələbidir. Bu, Ədliyyə naziri yanında İctimai Komitənin və vətəndaş cəmiyyəti nümayəndələrinin işinə də təkan verib. İctimai nəzarət dövlət strukturlarının işində, cəmiyyətin

inkişafında vacib istiqamətdir.

Ədliyyə Nazirliyində də ictimai iştirakçılığın və şəffaflığın təmin olunması məsələsi uğurla təşkil edilib. İctimai iştirakçılığın tətbiqi son dövrlərdə geniş vüsət alıb. Bunu Nazirliyin strukturlarına müraciət edən vətəndaşlar və cəzaçəkmə müəssisələrindəki məhkumlar hiss edir. Ədliyyə fəaliyyəti ilə bağlı komitə üzvlərinin nazirliyin müxtəlif strukturları qarşısında qaldırdıqları məsələlərin hər zaman həllinə nail olunur ki, bu da nazirliyin rəhbərliyinin xoşməramlılığından irəli gəlir.

Tədbirdə nazirliyin vətəndaş cəmiyyəti institutlarının daxil olduğu məhkumların vaxtından əvvəl cəzadan şərti azad olunması ilə bağlı xüsusi Komissiyasının səmərəli fəaliyyəti, xüsusilə indiki pandemiya şəraitində daha aktiv olması qeyd olunub, komitə üzvləri tərəfindən mütəmadi olaraq cəzaçəkmə müəssisələrinə baş çəkilməsindən, məhkumların saxlanma vəziyyəti ilə bağlı monitorinqlərin aparılmasından, məhkumların islah işində iştirakından bəhs olunub.

## Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər

**Əhalinin hüquqi maarifləndirilməsi çərçivəsində avqustun 12-də növbəti onlayn qaydada ictimai müzakirə keçirilib.**

"Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər" mövzusunda keçən ictimai müzakirədə Məhkəmə-Hüquq Şurası Aparatının Korrupsiyaya qarşı mübarizə və Məhkəmə monitorinqi sektorunun müdiri Seyfəlpaşa Əliyev iştirak edərək bu istiqamətdə işin təşkili, atılan addımlar barədə ətraflı məlumat verib.

Bildirilib ki, məhkəmə-hüquq sistemində islahatlar müasir çağırışlara uyğun olaraq yeni mərhələdə həyata keçirilir. Belə ki, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2019-cu il aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman bu sahədə islahatların yeni mərhələsinin başlanğıcı olmaqla yanaşı, ötən dövrdə çoxsaylı tədbirlər reallaşdırılıb, ölkədə yeni kommersiya və inzibati məhkəmələr







yaradılaraq bu ilin yanvarından fəaliyyətə başlayıb, hakimlərin maddi təminatını yaxşılaşdırılıb, Ali Məhkəmədə vahid məhkəmə təcrübəsinin formalaşdırılması ilə bağlı yeni mexanizmin müəyyənləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı qanunvericilikdə köklü dəyişikliklər edilib.

Ölkəmizdə məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurasının fəaliyyətindən bəhs olunaraq qeyd edilib ki,

Fərmanının icrası çərçivəsində məhkəmə hakimiyyətinə ictimai etimadın və məhkəmə fəaliyyətində şəffaflığın artırılması məqsədilə Məhkəmə-Hüquq Şurası tərəfindən ictimaiyyətlə əlaqələrin səmərəli qurulması üzrə müvafiq qərarlar qəbul olunub, Şuranın özündə və məhkəmələrdə ictimaiyyətlə əlaqələrə məsul şəxslər ayrılıb.

Eyni zamanda Fərmanla ayrılmış yeni 200 hakim ştatlarının komplektləşdirilməsinin hakimlərin iş yükünün azaldılmasında mühüm rol oynayacağı qeyd edilib və Azərbaycanda hakimliyə namizədlərin imtahanı prosesinin Avropada ən mütərəqqi təcrübələrdən hesab olunduğu, bu günədək həmin proseslərdən uğurla keçən 415 nəfərin yeni qaydada hakim vəzifələrinə təyin olunduğu bildirilərək yeni ştatların çevik doldurulması məqsədilə Şura tərəfindən hakimlərin seçim qaydasının təkmilləşdirilərək bu proses davamlı xarakter aldığı diqqətə çatdırılıb.

İctimai müzakirədə həmçinin məlumat verilib ki, ölkəmizdə qanunvericiliyə edilmiş dəyişikliklər, o cümlədən "Elektron məhkəmə" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, 2021-ci ildən etibarən respublikamızda mediasiya institutunun fəaliyyətə başlaması məhkəmələrin iş yükünün daha da azaldılmasına gətirib çıxaracaq.

Qeyd edilib ki, Fərmanda Məhkəmə-Hüquq Şurasına bir sıra mühüm tövsiyələr verilib, o cümlədən məhkəmələrdə qeyri-prosessual münasibətlərin yolverilməzliyinin təmin edilməsi üzrə monitorinqlərin aparılması nəzərdə tutulub. Həmin tövsiyələrin icrası üzrə Şuranın Aparatında yeni strukturlar yaradılıb. Belə ki, "Korrupsiya qarşı mübarizə və Məhkəmə monitorinqi" və "İnformasiya texnologiyaları və innovasiyalar" sektorları təşkil olunub. Şura tərəfindən indiyədək 60-dan çox məhkəmədə monitorinqlər keçirilib. Aşkarlanan pozuntular 150-dən çox hakim və məhkəmə sədrlərinin diqqətinə çatdırılıb. İşlərin elektron bölgüsünün həyata keçirilməsi ilə bağlı xüsusi monitorinqlər də aparılıb. Bu, həm yerlərdə, həm də "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə distant formada həyata keçirilib. Bu zaman müəyyən olunan pozuntular 20-dək məhkəmə sədrinin diqqətinə çatdırılıb. Daha ciddi pozuntularla bağlı isə iki məhkəmə sədri barədə intizam icraatı başlanılıb. Ümumilikdə, Fərmanın qəbul edildiyi dövrdən 44 hakim intizam məsuliyyətinə cəlb edilib.

Bildirilib ki, tədbirlərin əsas məqsədi ədalət mühakiməsinin təkmilləşdirilməsi və hakimlərin məsuliyyət hissinin artırılmasıdır. Bu istiqamətdə, həmçinin qarşıda duran vəzifələrə dair Məhkəmə-Hüquq Şurası tərəfindən videokonfrans formatında ölkənin bütün məhkəmə sədri və müavinləri, kollegiya sədrlərinin iştirakı ilə keçirilən müşavirədə qanunun aliliyinin və qərarların ədalətliliyinin təmin edilməsi ilə bağlı dövlət başçısının tövsiyələri diqqətə çatdırılıb. Qanun pozuntularına ciddi reaksiya verilməsi, korrupsiya və digər neqativ hallara qarşı barışmaz münasibət göstərilməsinin vacibliyi, hakim adına və nüfuzuna xələl gətirən halların qarşısının alınması üzrə qəti tədbirlər vurğulanıb.

Həyata keçirilən tədbirlər qısa müddətdə öz müsbət bəhrəsini verərək, hakimlərin özlərinə və məhkəmə əməkdaşlarına qarşı daha tələbkar olmaları ilə nəticələnib, bir çox neqativ halların aradan qaldırılmasına nail olunub.

Məlumat verilib ki, Fərmanın icrası çərçivəsində hakimlərin fəaliyyətinin qiymətləndirilməsi qaydaları qəbul edilib. Yeni qaydalar məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə mühüm töhfələr verəcək. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi məqsədilə avropalı ekspertlərlə qiymətləndirmə qaydalarının ilkin layihəsi hazırlanıb. Bu ilin martında qəbul edilən hakimlərin fəaliyyətinin qiymətləndirmə qaydaları müxtəlif istiqamətləri əhatə edir. Yüzdən çox hakimin fəaliyyətinin isə bu ilin sonunadək yeni qaydalarla qiymətləndirilməsi nəzərdə tutulur.

İctimai müzakirədə xüsusi karantin rejimi dövründə ədalət mühakiməsinin həyata keçirilməsindən, məhkəmələrin fəaliyyətindən söz açılıb, habelə Şuranın Korrupsiyaya qarşı mübarizə və məhkəmə monitorinqi sektorunun fəaliyyəti, gələcəkdə görüləcək işlər barədə məlumat verilib.

# Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı

**Avqustun 14-də Ədliyyə Nazirliyi tərəfindən "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı" mövzusunda onlayn qaydada ictimai müzakirə təşkil olunub.**







İctimai müzakirədə iştirak edən Nazirliyin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova, Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinin rəisi Reyhanə Kərimova və 1 saylı Bakı "ASAN xidmət" mərkəzində Ədliyyə Nazirliyi Qeydiyyat şöbəsinin rəisi Raşidə Mənəfova qeyd olunan istiqamətdə ədliyyə fəaliyyəti, işin təşkili barədə ətraflı məlumat verib, ölkədə vətəndaşlıq vəziyyəti aktlarını həyata keçirən qurumlar, "ASAN xidmət" mərkəzlərindəki qeydiyyat şöbələrinin fəaliyyətindən danışıblar.

Bildirilib ki, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı insan hüquqlarının qorunması, sosial müdafiə proqramlarının həyata keçirilməsi, əhalinin sağlamlığının təmini, cəmiyyətdə bir çox mühüm hüquqi və sosioloji prosedurlarda vacib rol oynayır. Hər bir insan həyatı boyunca vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı qeydiyyat şöbələrinə müraciət edir. Bu aktlar Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri və icra hakimiyyətlərinin nümayəndəlikləri tərəfindən həyata keçirilir. Hazırda bu fəaliyyətlə Ədliyyə Nazirliyinin 104 qeydiyyat şöbəsi və nikah evi məşğul olur. O cümlədən Bakıda 5, Azərbaycanın müxtəlif bölgələrində isə 15 "ASAN xidmət" mərkəzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri fəaliyyət göstərir. Doğumun, nikahın qeydə alınması və pozulması, atalığın müəyyənləşdirilməsi, övladlığa götürülmə, ad, soyad, ata adının dəyişdirilməsi, ölümün dövlət qeydiyyatı və sair əməliyyatlar Ədliyyə Nazirliyinin müvafiq qeydiyyat şöbələri tərəfindən həyata keçirilir.

Doğumun dövlət qeydiyyatına alınması ilə bağlı vətəndaşlara məlumat verilib ki, nazirliyin qeydiyyat şöbələrinə,

həmçinin onlayn növbəlilik əsasında "ASAN xidmət" mərkəzlərindəki müvafiq qurumlarına müraciət etməklə vətəndaşlar qeydiyyat şöbəsində həyata keçirilən bütün xidmətlərdən yararlana bilərlər. Qanunvericiliyin tələbinə görə doğumun dövlət qeydiyyatı bir ay müddətində müəyyənləşdirilib. Hazırda doğumun qeydiyyatı avtomatlaşdırılmış qaydada aparılır. Doğum faktı baş verdikdə bu barədə məlumat Səhiyyə Nazirliyi tərəfindən avtomatlaşdırılmış qaydada Ədliyyə Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinə ötürülür və uşağa avtomatlaşdırılmış rejimdə təkrar olunmayan və həyatının sonunadək dəyişməyən fərdi identifikasiya nömrəsi (FIN) verilir. Bu uşaqları eyniləşdirməyə, doğumu qanunvericiliklə müəyyən olunmuş müddətdə qeydə alınmayanları vaxtında aşkarlamağa, doğumun dövlət qeydiyyatının məcburiliyi barədə bildiriş göndərilməklə valideynləri qeydiyyat şöbəsinə dəvət etməyə, qeydiyyatdan yayınanları inzibati məsuliyyətə cəlb etməyə əsas verir. Bundan başqa, doğumun səyyar qaydada qeydə alınması işi təşkil olunur. Ötən il 3.474, bu ilin altı ayında 920 doğumun səyyar qaydada qeydiyyatı aparılıb. Eyni zamanda, ev şəraitində doğulan uşaqların müəyyənləşdirilməsi və qeydiyyatı sahəsində də bir sıra işlər görülür, maarifləndirmə işləri aparılır, vətəndaşlara hüquqi yardım göstərilir.

Diqqətə çatdırılıb ki, valideynlər uşaqlara ad seçimində çətinliklərlə rastlaşırlar. Adın, ata adının, soyadın verilməsi və dəyişdirilməsi Nazirlər Kabinetinin müvafiq qərarı ilə tənzimlənir. Bu qərara görə uşağın mənafeyinə xələl gətirəcək, cinsinə uyğun gəlməyən, gülünc adların verilməsi ilə bağlı məhdudiyyətlər qoyulub. Bu məhdudiyyətlərin tətbiqi Azərbaycan ədəbi dil normalarına uyğun olmayan adların qoyulmasının qarşısını almağa imkan verir. Qeydiyyat şöbəsinin hüququ və vəzifələrindən biri də müraciət edən valideynlərə uşaqları üçün seçilən adların izahını və tövsiyələrini verməkdir. Ədliyyə Nazirliyinin rəsmi saytındakı elektron xidmətlər bölməsində valideynlərə uşaqlarına ad seçilməsində kömək məqsədilə Azərbaycan adları, onların mənşəyi və izahı, əhali arasında yayılma səviyyəsi və sair informasiya almaq üçün axtarış sistemi də yaradılıb.

Tədbirdə nikahın dövlət qeydiyyatı ilə bağlı vətəndaşlara ətraflı məlumat verilib, pandemiya dövründə təntənəli nikahların keçirilməsi tədbirlərinin təxirə salındığı, qeydiyyat şöbələrində müraciət edənlərin sağlamlığı düşünülərək iştirakçıların sayında məhdudiyyətlər tətbiq olunmaqla nikahın rəsmiləşdirilməsi üçün lazımi şərait yaradıldığı bildirilib. Bundan əlavə, nikahın pozulmasının qarşısının alınması məqsədilə qeydiyyat şöbələrinə psixoloqların cəlb olunmasının əhəmiyyəti vurğulanıb.

Onlayn ictimai müzakirədə, həmçinin övladlığa götürmə, nikah yaşı, atalığın müəyyənləşdirilməsi, əcnəbilərlə nikahın bağlanması və sair məsələlərlə bağlı sosial şəbəkə istifadəçilərinin sualları cavablandırılıb.

## Notariat fəaliyyəti

**Avqustun 21-də Ədliyyə Nazirliyi tərəfindən "Notariat fəaliyyəti" mövzusunda onlayn qaydada ictimai müzakirə təşkil olunub.**

İctimai müzakirədə iştirak edən Azərbaycan Notariat Palatası İdarə Heyətinin sədri, 2 saylı Bakı "ASAN xidmət" mərkəzində xüsusi notarius Hüseyn Məmmədov, nazirliyin Qeydiyyat və notariat baş idarəsinin məsləhətçisi Zaur Həsənov notariat fəaliyyəti və bu sahədə tətbiq olunan yeniliklər barədə ətraflı məlumat veriblər.

Bildirilib ki, notariat Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş vətəndaşların hüquq və qanunu mənafeyinin hüquqi müdafiəsinin etibarlı təminatçısıdır. Notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olan şəxs notarius adlanır. Azərbaycanda hazırda 160 notarius fəaliyyət göstərir. Onların əksəriyyəti xüsusi notariuslardır.

Pandemiya dövründə notariat hərəkətlərinin təşkilində də tibbi müdafiə və sosial məsafə kimi qoruyucu tədbirlərlə yanaşı, rəqəmsal texnologiyalardan istifadə edilməsinə və məsafədən notariat xidmətlərinin göstərilməsinə üstünlük verilib. Pandemiyadan xeyli əvvəl elektron notariatın təkmilləşdirilməsi istiqamətində əhatəli işlər görülüb, interaktiv məsləhət xidməti yaradılıb, notariuslar səyyar xidmət çantaları ilə təmin edilib və mobil notariatla bağlı bir sıra elektron imkanlar yaradılıb.

Həmçinin "Elektron notariat" informasiya sisteminin fəaliyyətinə toxunularaq bu sistemin 10-dan artıq qurumla məlumat mübadiləsi təşkil olunmaqla vətəndaşlara daha çevik və keyfiyyəti notariat xidmətlərin göstərilməsinin təmin edildiyi qeyd olunub, hər gün təxminən 10 mindən çox notariat hərəkətlərinin rəsmiləşdirildiyi diqqətə çatdırılıb.

Məlumat verilib ki, bu ilin yeddi ayında notariat ofislərində 2,1 milyondan artıq notariat hərəkəti rəsmiləşdirilib. Bütün notariat ofislərində universal ödəniş köşkləri yerləşdirilib. Vətəndaşlara




məsafədən videoəlaqə vasitəsilə xidmətlər də göstərilir. Heydər Əliyev Beynəlxalq Aeroportunda quraşdırılmış "Elektron ədliyyə" köşkü vasitəsilə yetkinlik yaşına çatmamış şəxslərin ölkə ərazisini tərk etməsi üçün valideynləri tərəfindən yazılan razılıq ərizələrinin sayı 600-dən çoxdur. Gələcəkdə bu köşklərin ölkəmizin digər hava limanlarında qoyulması nəzərdə tutulur.

Eyni zamanda, bu günədək 60 mindən çox istifadəçi "Mobil notariat" tətbiqini telefonlarına yükləyib və bu tətbiq vasitəsilə təxminən 20 min etibarnamə elektron qaydada rəsmiləşdirilib. Hazırda yeni notariat hərəkətlərinin, o cümlədən banklar üçün verilən etibarnamələrin, eləcə də etibarnamələrin ləğvinə dair ərizələrin və yetkinlik yaşına çatmamış şəxslərin ölkə ərazisini tərk etməsi üçün valideynləri tərəfindən yazılan razılıq ərizələrinin də elektron qaydada "Mobil notariat" tətbiqi vasitəsilə rəsmiləşdirilməsi imkanı yaradılması üzərində işlər aparılır.

Vətəndaşlar nazirlik tərəfindən aparılan 30-dan çox elektron xidmətlər barədə məlumatlandırılıblar.

Müzakirələrdə həmçinin, Azərbaycan Notariat Palatasının yaranması və fəaliyyət istiqamətləri barədə məsələlərə toxunulub, daşınmaz əmlakla bağlı vəsiyyətnamə, bağışlanma, sənədə apostil verilməsi və sair məsələlərə aydınlıq gətirilib.

## Probasiya xidmətinin fəaliyyəti

**Avqustun 26-da Ədliyyə Nazirliyi tərəfindən onlayn qaydada keçirilən növbəti ictimai müzakirə "Azadlıqdan məhrumetməyə alternativ cəzaların icrası, Probasiya Xidmətinin fəaliyyəti" mövzusuna həsr olunub.**

Tədbirdə Nazirliyin Probasiya Xidmətinin rəis müavini Musa Hümbətov, Elektron Monitorinq İdarəsinin baş məsləhətçisi Nəvai Əlizadə Xidmətin əsas fəaliyyət istiqamətləri və onun təşkili barədə ətraflı məlumat verib.

Qeyd edilib ki, Prezident İlham Əliyevin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin

humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə Ədliyyə Nazirliyinin strukturunda Probasiya Xidməti yaradılıb və bu yeni təsisat həmin ilin dekabrın 1-dən fəaliyyətə başlayıb. Probasiya Xidməti cərimə, nəqliyyat vasitəsini idarəetmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların icrasını və həmin cəzalara məhkum edilmiş, habelə şərti məhkum olunmuş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya məhkəmə tərəfindən cəzasının çəkilməsi təxirə salınmış, eləcə də cinayət törətmiş və alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş və barəsində narkomaniyadan məcburi müalicə təyin edilmiş şəxslər üzərində probasiya nəzarətini həyata keçirərək həmin şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin profilaktikasını aparır.

Bildirilib ki, dövlət başçısının Sərəncamına əsasən cəzaların icrası zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədilə 2018-ci ilin mayından ölkəmizdə elektron nəzarət vasitələrinin tətbiqinə başlanılıb. Bu nəzarət vasitələri məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunub, şərti məhkum edilmiş və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə tətbiq edilir. Əsas yeniliklərdən biri azadlığın məhdudlaşdırılması növündə cəzanın icrasının bilavasitə elektron nəzarət vasitələri tətbiq edilməklə həyata keçirilməsidir. Bu cəza növündə məhkumun müəyyən məhdudiyyətlər çərçivəsində sərbəst hərəkət etmək hüququ vardır.





Nəzərə çatdırılıb ki, elektron nəzarət vasitələri tətbiq edilmiş məhkumların izlənilməsi Probasiya Xidmətinin Monitorinq Mərkəzində 24 saat ərzində fasiləsiz həyata keçirilir. Azadlığın məhdudlaşdırılması cəzası və məhkumların elektron nəzarət vasitələri ilə izlənilərək daim nəzarətdə saxlanılmaları onların islah olunmasında və təkrar cinayət törətmələrinin qarşısının alınmasında səmərəli vasitədir. Ötən dövrdə 5 min nəfərdən çox məhkuma elektron nəzarət vasitələri tətbiq edilib. Hazırda Monitorinq Mərkəzində elektron nəzarət vasitələri tətbiq edilmiş 3 mindən artıq şəxs izlənilməkdədir.

Tədbirdə həmçinin ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası zamanı elektron nəzarət vasitələrinin tətbiqi ilə bağlı Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrinə edilmiş dəyişikliklərin mahiyyəti barədə məlumat verilib. Bildirilib ki, ictimai işlərin icrasına daha səmərəli və elektron qaydada nəzarət həyata keçiriləcək. Bu dəyişiklikdən sonra ictimai işlərin icrasına nəzarət zamanı insan faktoru azalacaq.

Onlayn ictimai müzakirədə, həmçinin elektron nəzarət vasitələri əyani nümayiş etdirilib, bu avadanlığın tətbiqi təcrübəsindən danışılıb.

***

Ədliyyə fəaliyyətinə dair onlayn qaydada keçirilmiş ictimai müzakirələrdə vətəndaşların, kütləvi informasiya vasitələrinin və sosial şəbəkə istifadəçilərinin çoxsaylı sualları cavablandırılıb, nazirlik tərəfindən belə tədbirlərin keçirilməsinin əhalinin maariflələndirilməsi, ədliyyə və məhkəmə fəaliyyəti barədə daha dolğun və hərtərəfli məlumatlandırılmasında əhəmiyyəti qeyd edilib.

## "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 18; 2001, N 11, maddə 687, N 12, maddə 731; 2003, N 1, maddə 23; 2004, N 2, maddə 57, N 3, maddə 133; 2006, N 11, maddə 928; 2007, N 1, maddə 4, N 7, maddə 712; 2010, N 7, maddə 591; 2011, N 6, maddə 477, N 7, maddə 584, N 12, maddə 1092; 2013, N 7, maddə 788; 2015, N 3, maddə 252; 2016, N 6, maddə 991; 2018, N 7 (I kitab) maddə 1423; Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 103-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 12-ci maddənin dördüncü-altıncı hissələri müvafiq olaraq beşinci-yeddinci hissələr hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Müvafiq icra hakimiyyəti orqanının işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, həmçinin probasiya xidmətinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitin 43 faizi müvafiq icra hakimiyyəti orqanının hesabına köçürülür. Bu vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.".

2. 13-cü maddənin birinci hissəsinin birinci cümləsində "büdcəsi," sözü "büdcəsi və icra xidməti" sözləri ilə əvəz edilsin, ikinci cümləsinə isə "büdcəsi" sözündən sonra "və bu Qanunun 12-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulan vəsait" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 29 iyun 2020-ci il.*
*N144-VIQD*

## "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 144-VIQD nömrəli Qanununun tətbiqi və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli

144-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 25; 2002, N 5, maddə 262, N 8, maddə 478; 2011, N 4, maddə 278; 2018, N 7 (I kitab), maddə 1469; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 iyun tarixli 1070 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bəndə "dördüncü hissəsində" sözlərindən sonra "və 12-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsində" sözləri əlavə edilsin;

1.2. 2.2-ci bəndə "ikinci hissəsində" sözlərindən sonra "və dördüncü hissəsinin birinci cümləsində (ikinci halda)" sözləri əlavə edilsin;

1.3. 2.5-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

"2.6. həmin Qanunun 12-ci maddəsinin dördüncü hissəsinin birinci cümləsində "müvafiq icra hakimiyyəti orqanının işçiləri" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Aparatının Probasiya xidmətinin, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Aparatının Probasiya qurumunun və yerli probasiya qurumlarının işçiləri nəzərdə tutulur.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsinə uyğun olaraq, cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitdən istifadə qaydasını iki ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

2.2. "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 144-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 10 avqust 2020-ci il.*
*N1122*

## Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 586, N 12, maddə 835; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 237, 240, 244, N 8, maddə 463; 2004, N 6, maddə 399; 2005, N 4, maddə 278; 2006, N 11, maddə 929; 2007, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddələr 1197, 1218; 2008, N 6, maddə 462, N 7, maddələr 602, 607; 2010, N 3, maddə 171, N 4, maddə 275, N 7, maddə 591; 2011, N 2, maddələr 70, 71, N 6, maddə 473, N

7, maddə 600, N 12, maddə 1107; 2012, N 5, maddə 406, N 11, maddələr 1056, 1063; 2013, N 8, maddə 889; 2015, N 10, maddə 1107, N 11, maddə 1271; 2016, N 6, maddələr 981, 1000; 2017, N 6, maddə 1058, N 12 (I kitab), maddə 2268; 2018, N 5, maddə 881, N 7 (I kitab), maddə 1422, N 10, maddələr 1971, 1978, N 11, maddə 2225; 2019, N 4, maddələr 570, 579, N 5, maddələr 796, 812, N 11, maddə 1686) aşağıdakı dəyişikliklər edilsin:

1. 15-2.1-ci maddənin birinci cümləsində "Azadlığın" sözü "İctimai işlər və azadlığın" sözləri ilə əvəz edilsin.

2. 15-2.4-cü maddəyə "onun" sözündən sonra "istifadəsinə verilir və ya" sözləri əlavə edilsin, həmin maddədə "və ya" sözləri ", habelə elektron nəzarət vasitəsi şəxsin üzərinə bağlandıqda" sözləri ilə əvəz edilsin.

3. 35.1-ci maddəyə "işləməli" sözündən sonra ", müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada elektron nəzarət vasitəsindən istifadə etməli, elektron nəzarət vasitəsini ictimai işlərin yerinə yetirildiyi yerlərdə gəzdirməli, həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməli" sözləri əlavə edilsin.

4. Aşağıdakı məzmunda 39.0.2-1-ci maddə əlavə edilsin:

"39.0.2-1. elektron nəzarət vasitəsini gəzdirməkdən imtina edənlər, onu zədələyənlər və ya digər üsulla yararsız vəziyyətə salanlar, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün üzrsüz səbəbdən ona xidmət etməyənlər;".

5. 51-7.6.2-ci, 178.5-ci, 178.7-ci, 182.2-ci və 182.5-ci maddələrə "ona xidmət" sözlərindən əvvəl "üzrsüz səbəbdən" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 iyun 2020-ci il.*
*N 146-VIQD*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4 (II kitab), maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12 (I kitab), maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560, 562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 6, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N

2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4, maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161, N 3, maddə 330, N 5, maddələr 694, 697, 700, 702, 733, N 7, maddələr 1268, 1271, 1293, N 11, maddələr 1968, 1978, N 12 (I kitab), maddə 2231; 2018, N 3, maddə 403, N 5, maddə 861, N 6, maddə 1154, N 7 (I kitab), maddə 1441, N 10, maddə 1972, N 11, maddə 2213, N 12, (I kitab), maddə 2472; 2019, N 4, maddə 586, N 7, maddə 1201, N 8 maddə 1367; 2020, N 3, maddə 223; Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 68-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 47.2-1-ci maddə əlavə edilsin:

"47.2-1. Məhkəmə tərəfindən ictimai işlər növündə cəzaya məhkum edilmiş şəxslərin üzərinə ictimai işlərin yerinə yetirildiyi yerlərdə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi qoyulur.".

2. 71.3-cü və 76.6.1-ci maddələrə "ona xidmət" sözlərindən əvvəl "üzrsüz səbəbdən" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 29 iyun 2020-ci il.*
*N 147-VIQD*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1168, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N 1, maddələr 4, 6, 15, 18, 44, N 3, maddələr 374, 389, N 4,

maddələr 579, 581, 587, 595, N 5, maddələr 791, 800, 803, 804, 813, N 6, maddələr 992, 998, 1007, N 7, maddə 1193, N 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, N 11, maddələr 1682, 1686, 1696, N 12, maddələr 1883, 1900; 2020, N 3, maddə 222; Azərbaycan Respublikasının 2020-ci il 30 mart tarixli 41-VIQD nömrəli, 24 aprel tarixli 62-VIQD nömrəli, 1 may tarixli 69-VIQD nömrəli, 8 may tarixli 94-VIQD nömrəli, 2 iyun tarixli 124-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 28.3-1-ci maddə əlavə edilsin:

"28.3-1. Məhkəmə tərəfindən ictimai işlər növündə inzibati tənbeh tətbiq olunmuş şəxslərin üzərinə həmin işlərin yerinə yetirildiyi yerlərdə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi qoyulur.".

2. 154.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"154.3. İcra məmuru:

154.3.1. barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilmiş şəxslərin qeydiyyatını aparır, onlara tənbehin icrasının qayda və şərtlərini izah edir;

154.3.2. barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilmiş şəxslərə elektron nəzarət vasitəsini təqdim etməklə, həmin vasitəni ictimai işlərin yerinə yetirildiyi vaxtların cədvəlinə uyğun üzərlərində daşımalı, istifadə etməli olduqlarını, işlək vəziyyətdə saxlanılması üçün ona xidmət qaydalarını, habelə hər hansı müdaxilənin və ya elektron nəzarət vasitəsindən istifadədən imtina edilməsinin yolverilməzliyini izah edir və bu barədə protokol tərtib edir;

154.3.3. barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilmiş şəxslərin davranışına, onların ictimai işlərin yerinə yetirilməli olduğu yerlərə vaxtında gəlmələrinə və həmin yerləri müəyyən olunmuş vaxtdan sonra tərk etmələrinə nəzarət edir;

154.3.4. barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilmiş şəxslərin işləmiş olduğu vaxtın uçotunu aparır, ayda iki dəfədən az olmayaraq, şəxsin ictimai işləri yerinə yetirməli olduğu vaxtlarda həmin işlərin görüldüyü yerlərə baş çəkməklə protokol tərtib edir;

154.3.5. ictimai işlər növündə inzibati tənbehin bu Məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilməsi üçün digər tədbirləri görür.".

3. Aşağıdakı məzmunda 156-1-ci maddə əlavə edilsin:

"Maddə 156-1. İnzibati tənbeh tətbiq etmə zamanı elektron nəzarət vasitələrinin tətbiqi xüsusiyyətləri

156-1.1. Barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq olunmuş şəxslərə elektron nəzarət vasitələri tətbiq edilir.

156-1.2. Elektron nəzarət vasitələrinin tətbiqi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

156-1.3. Elektron nəzarət vasitələri tətbiq edilmiş şəxslərin müəyyən edilmiş vəzifələri yerinə yetirməsinə nəzarət icra məmurları tərəfindən həyata keçirilir.

156-1.4. Elektron nəzarət vasitələri tətbiq edilmiş şəxslərə elektron nəzarət vasitəsi təqdim olunur və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət qaydaları, hər hansı müdaxilənin yolverilməzliyi, həmçinin bu əməlin hüquqi nəticələri izah edilir və bu barədə protokol tərtib edilir.

156-1.5. Elektron nəzarət vasitəsi tətbiq edilmiş şəxs həmin vasitəni zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, onun dəyəri həmin şəxsdən tutulur.".

4. 529-cu maddənin "Qeyd" hissəsinə aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etmək, onu zədələmək və ya digər üsulla yararsız vəziyyətə salmaq, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün üzrsüz səbəbdən ona xidmət etməmək;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 29 iyun 2020-ci il.*

*N 148-VIQD*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (I kitab), maddə 583; 2001, N 7, maddə 454, N 9, maddə 576, N 12, maddə 734; 2002, N 5, maddə 249, N 12, maddə 707; 2003, N 8, maddə 425, N 12 (I kitab), maddə 671; 2004, N 1, maddə 1, N 11, maddə 887, N 12, maddə 980; 2005, N 2, maddə 61, N 8, maddə 688, N 12, maddə 1081; 2006, N 12, maddələr 1005, 1026; 2007, N 1, maddə 4, N 6, maddə 597, N 8, maddə 745, N 11, maddə 1053, N 12, maddə 1192; 2008, N 7, maddə 602, N 11, maddə 960; 2009, N 7, maddə 506; 2011, N 1, maddə 14, N 7, maddələr 588, 603, N 12, maddə 1115; 2012, N 6, maddələr 500, 513, N 7, maddə 652, N 9, maddə 841, N 12, maddə 1226; 2013, N 2, maddə 91, N 4, maddə 366, N 11, maddə 1278, N 12, maddələr 1483, 1486, 1495; 2014, N 2, maddələr 94, 98, N 6, maddə 608, N 7, maddə 770, N 8, maddə 957, N 10, maddə 1158, N 12, maddə 1525; 2015, N 1, maddə 11, N 12, maddə 1433; 2016, N 2 (I kitab), maddə 207, N 3, maddələr 396, 402, N 5, maddə 848, N 6, maddələr 973, 974, 1015, N 7, maddə 1245, N 10, maddə 1603, N 11, maddələr 1752, 1792, 1793, N 12, maddələr 2001, 2037, 2046; 2017, N 2, maddə 146, N 5, maddələr 695, 723, 737, N 6, maddə 1055, N 7, maddə 1304, N 8, maddə 1509, N 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, N 2, maddə 149, N 5, maddə 863, N 6, maddə 1193, N 7 (I kitab), maddələr 1414, 1427, N 10, maddə 1962, N 11, maddələr 2186, 2210, N 12 (I kitab), maddələr 2498, 2509; 2019, N 1, maddə 30, N 4, maddə 590, N 5, maddələr 796, 801, 804, 812, 814, N 8, maddələr 1364, 1373, 1378, N 12, maddə 1894; Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 72-VIQD nömrəli, 8 may tarixli 90-VIQD nömrəli və 19 may tarixli 103-VIQD nömrəli qanunları) 30.6.11-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 30.6.12-ci və 30.6.13-cü maddələr əlavə edilsin:

"30.6.12. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq notariat hərəkətlərinin aparılması və bununla əlaqədar xidmətlərin göstərilməsi üçün notariuslara;

30.6.13. "İcra haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icra hərəkətlərinin həyata keçirilməsi üçün icra məmurlarına.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 30 iyun 2020-ci il.*

*N152-VIQD*

## "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Notariat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 10, N 6, maddə 414; 2001, N 5, maddə 293, N 11, maddə 687, N 12, maddə 740; 2002, N 5, maddə 241, N 6, maddə 328, N 12, maddə 706; 2004, N 5, maddə 318; 2005, N 4, maddə 281, N 8, maddə 699, N 10, maddə 903, N 11, maddə 993; 2007, N 1, maddə 4, N 2, maddə 69, N 8, maddə 745, N 11, maddələr 1053, 1075; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 1, maddə 5, N 7, maddə 517, N 11, maddə 878; 2010, N 7, maddə 597, N 11, maddə 938; 2011, N 4, maddə 258, N 12, maddə 1098; 2012, N 10, maddə 946; 2013, N 11, maddə 1271; 2014, N 11, maddə 1353; 2015, N 5, maddə 487; 2016, N 1, maddə 11, N 7, maddə 1243, N 12, maddə 2025; 2017, N 2, maddə 148, N 12 (I kitab), maddə 2236; 2018, N 7 (I kitab), maddə 1388, N 8, maddə 1673, N 11, maddə 2230; 2019, N 1, maddə 22, N 6, maddələr 993, 997, N 11, maddə 1681) 32-ci maddəsinin on ikinci-on dördüncü hissələri müvafiq olaraq on üçüncü-on beşinci hissələr hesab edilsin və aşağıdakı məzmunda on ikinci hissə əlavə olunsun:

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icra hərəkətlərinin həyata keçirilməsi ilə əlaqədar borclu şəxslərlə bağlı notariat hərəkətləri (vərəsəlik, ər-arvadın ümumi əmlakındakı paya mülkiyyət hüququ haqqında şəhadətnamələr, müqavilələr və etibarnamələr) və vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatlar icra məmurlarına elektron sorğular əsasında real vaxt rejimində verilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 iyun 2020-ci il.*
*N153-VIQD*

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1,

maddə 8; 2005, N 1, maddə 1, N 8, maddə 700; 2006, N 2, maddə 70; 2008, N 2, maddə 49; 2010, N 4, maddə 265; 2012, N 1, maddə 2, N 7, maddə 651; 2013, N 12, maddə 1479; 2014, N 2, maddə 78, N 7, maddə 769, N 11, maddə 1356, N 12, maddə 1526; 2015, N11, maddə 1259; 2016, N 4, maddə 644, N 10, maddə 1606; 2017, N 5, maddələr 709, 724, N 10, maddə 1775; 2018, N 12 (I kitab), maddələr 2471, 2531; 2019, N 1, maddələr 16, 21, N 2, maddə 176, N 6, maddə 999, N 7, maddə 1203; Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 99-VIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 9.2-3-cü və 9.2-4-cü maddələr əlavə edilsin:

"9.2-3. Qeyri-hökumət təşkilatlarının təsis sənədlərində edilən dəyişikliklərin, eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliklərinin dövlət qeydiyyatı bu Qanunun tələbləri nəzərə alınmaqla və gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə də həyata keçirilir.

9.2-4. Müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemində sənədlər gücləndirilmiş elektron imza ilə təsdiq olunur, sistemin iştirakçıları və istifadəçiləri öz fəaliyyətində həmin sistem vasitəsilə əldə edilən sənədlərdən istifadə edirlər. Həmin sistemdən əldə edilən sənədlər dövlət qurumlarına və şəxslərə kağız daşıyıcılarda, yaxud "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq elektron qaydada təqdim oluna bilər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 30 iyun 2020-ci il.*
*N 156-VIQD*

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 156-VIQD nömrəli Qanununun tətbiqi və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 156-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 4, maddə 228; 2005, N 8, maddə 708, N 9, maddə 801, N 12, maddə 1103; 2006, N 12, maddə 1034; 2008, N 2, maddə 54; 2012, N 1, maddə 6; 2013, N 12, maddə 1529; 2014, N 2, maddə 103; 2016, N 3, maddə 465, N 9, maddə 1464, N 10, maddə 1637;

2017, N 5, maddə 846, N 9, maddə 1653, N 10, maddə 1803, N 12 (I kitab), maddə 2319; 2018, N 12, maddə 2614; 2019, N 2, maddə 211) aşağıdakı məzmunda 2.13-1-ci bənd əlavə edilsin:

"2.13-1. həmin Qanunun 9.2-3-cü maddəsində və 9.2-4-cü maddəsinin birinci cümləsində "müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Fərdi elektron pəncərə" elektron məlumat sistemi nəzərdə tutulur;".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 9.2-3-cü maddəsində və 9.2-4-cü maddəsinin birinci cümləsində, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun 16.2-1-ci, 16.2-2-ci və 24-3-cü maddələrində nəzərdə tutulmuş imkanların Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Fərdi elektron pəncərə" elektron məlumat sistemi vasitəsilə həyata keçirilməsini təmin etmək məqsədilə həmin sistemin proqram təminatında müasir texnoloji həllərin tətbiqi, o cümlədən məlumat bazasının optimallaşdırılması, habelə onun digər informasiya sistemləri ilə inteqrasiya imkanlarının genişləndirilməsi üçün zəruri məsələləri həll etsin;

2.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 10 avqust 2020-ci il.*
*N1126*

## "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respub-

likasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 10, maddə 710; 2001, N 9, maddə 576, N 11, maddə 675; 2003, N 1, maddə 16; 2005, N 4, maddə 278, N 8, maddə 684, N 10, maddə 908; 2007, N 11, maddələr 1049, 1053; 2008, N 8, maddə 699; 2009, N 7, maddə 517, N 8, maddə 611; 2010, N 4, maddə 265; 2013, N 3, maddə 216; 2014, N 2, maddə 79, N 11, maddə 1359; 2018, N 6, maddə 1160, N 7 (I kitab), maddə 1405) aşağıdakı məzmunda 16.2-1-ci, 16.2-2-ci və 24-3-cü maddələr əlavə edilsin:

"16.2-1. Qeyri-hökumət təşkilatlarının təsis sənədlərində edilən dəyişikliklərin, eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliklərinin elektron müraciət əsasında müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə dövlət qeydiyyatı "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

16.2-2. Qeyri-hökumət təşkilatlarının bank hesabları üzrə maliyyə əməliyyatlarının aparılması zamanı müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə əldə edilmiş sənədlərdən kağız daşıyıcılarda, yaxud "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq elektron qaydada istifadə edilir.";

**"Maddə 24-3. Qrant müqavilələrinin (qərarlarının), xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydə alınmasının və ianələr üzrə məlumatların təqdim edilməsinin elektron müraciət əsasında aparılması**

Qeyri-hökumət təşkilatları qrant müqavilələrinin (qərarlarının), xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydə alınmasının və qəbul etdikləri ianələr üzrə məlumatların təqdim edilməsinin müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə elektron qaydada həyata keçirilməsi üçün müraciət edə bilərlər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 30 iyun 2020-ci il.*

*N 157-VIQD*

"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 157-VIQD nömrəli Qanununun tətbiqi və "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 4 oktyabr tarixli 401 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azər-

baycan Respublikasının 2020-ci il 30 iyun tarixli 157-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 4 oktyabr tarixli 401 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 10, maddə 716; 2009, N 12, maddə 988; 2010, N 11, maddə 966; 2013, N 7, maddə 808; 2014, N 7, maddə 819; 2015, N 5, maddə 529) 2.4-cü bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.5-ci bənd əlavə edilsin:

"2.5. həmin Qanunun 16.2-1-ci, 16.2-2-ci və 24-3-cü maddələrində "müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Fərdi elektron pəncərə" elektron məlumat sistemi nəzərdə tutulur.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 157-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 10 avqust 2020-ci il.*

*N1127*

## "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Qrant haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 6, maddə 366; 2001, N 12, maddə 736; 2002, N 12, maddə 706; 2003, N 1, maddə 1; 2009, N 8, maddə 611; 2013, N 3, maddə 215; 2014, N 2, maddə 82, N 11, maddələr 1358, 1369; 2017, N 3, maddə 335; 2019, N 1, maddə 27) 4-cü maddəsinə aşağıdakı məzmunda 4-3-cü hissə əlavə edilsin:

"4-3. Qeyri-hökumət təşkilatları qrant müqavilələrinin (qərarlarının) "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun 24-3-cü maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi vasitəsilə qeydə alınması üçün müraciət edə bilərlər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 30 iyun 2020-ci il.*

*N 158-VIQD*

## "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 158-VIQD nömrəli Qanununun tətbiqi və "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 720 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 158-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 720 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 6, maddə 381; 2003, N 9, maddə 478; 2014, N 7, maddə 823; 2015, N 10, maddə 1125; 2016, N 8, maddə 1384; 2017, N 3, maddə 368) 2.5-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

"2.6. həmin Qanunun 4-cü maddəsinin 4-3-cü hissəsində "müvafiq icra hakimiyyəti orqanının elektron məlumat sistemi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Fərdi elektron pəncərə" elektron məlumat sistemi nəzərdə tutulur.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 30 iyun tarixli 158-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 10 avqust 2020-ci il.*
*N1128*

## Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Mülki və Vergi Məcəllələrinin, "İpoteka haqqında" və "İcra haqqında" Azərbaycan Respublikası Qanunlarının bəzi müddəalarının əlaqəli şəkildə şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov (məruzəçi-hakim), Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tər-

kibdə, məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Mülki və Vergi Məcəllələrinin, "İpoteka haqqında" və "İcra haqqında" Azərbaycan Respublikası Qanunlarının bəzi müddəalarının əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.İsmayılovun məruzəsini, maraqlı subyektlər Bakı Apellyasiya Məhkəməsinin və Azərbaycan Respublikası Milli Məclisinin nümayəndələrinin yazılı çıxışlarını, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Mərkəzi Bankının və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin yazılı mülahizələrini, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Bakı Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra - Mülki Məcəllə), Azərbaycan Respublikası Vergi Məcəlləsinin (bundan sonra - Vergi Məcəlləsi), "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - "İpoteka haqqında" Qanun) və "İcra haqqında" Azərbaycan Respublikası Qanununun bəzi müddəalarının əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, "AccessBank" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra - "AccessBank" QSC) "Əmlak İxtisaslaşdırılmış Hərrac Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı iddia ərizəsi ilə 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə müraciət edərək, keçirilmiş hərracın yekunlarına dair protokolun və alqı-satqı müqaviləsinin "AccessBank" QSC tərəfindən sadələşdirilmiş vergi ödənilmədən və həmin verginin ödənilməsi ondan tələb edilmədən bağlanması vəzifəsinin cavabdehin üzərinə qoyulmasını xahiş etmişdir.

"AccessBank" QSC "İpoteka haqqında" Qanunun 43.7-ci maddəsinə istinad edərək borcun əvəzi olaraq ona təklif olunmuş əmlakları qəbul etdiyini bildirmiş, hərraca çıxarılmış ipoteka predmetinin satıcısı olmadığını əsas tutaraq ondan vergilərin ödənilməsinin tələb olunmasını və bu əsasla cavabdehin həmin əmlakların onun adına rəsmiləşdirilməsindən imtinasını əsassız saymışdır.

1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 9 dekabr 2019-cu il tarixli qətnaməsi ilə "AccessBank" QSC-nin iddia tələbi təmin edilmişdir.

Həmin qətnamədən müstəqil tələb irəli sürməyən üçüncü şəxs Azərbaycan Respublikasının Vergilər Nazirliyi (bundan sonra - Vergilər Nazirliyi) apellyasiya şikayəti verərək qətnamənin ləğv edilməsini və iddia ərizəsinin təmin edilməməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı Apellyasiya Məhkəməsi işə baxarkən mülki qanunvericilikdə ipoteka saxlayanın məhkəmə qaydasında təmin olunmuş tələbi əsasında icra məmurunun hərrac təşkilatına verdiyi şifarişə əsasən keçirilmiş təkrar hərrac baş tutmadığı halda, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı ödəmə mənbəyində tutulması tələb olunan sadələşdirilmiş verginin ödənilməsi əsaslarını müəyyən edən hüquq

normalarının qeyri-müəyyənliyi və məhkəmələrdə belə mübahisələrin həlli zamanı fərqli yanaşmaların mövcudluğunu nəzərə alaraq, vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə qaldırılan məsələ üzrə müvafiq şərhin verilməsinin zəruriliyi qənaətinə gəlmişdir.

Müraciətdə göstərilmişdir ki, birinci instansiya məhkəməsi qətnaməsini "AccessBank" QSC-nin daşınmaz əmlakı təqdim edən şəxs deyil, həmin əmlakı əldə edən qismində çıxış etməsi və müvafiq əməliyyatda satıcının iştirak etməməsi, bu səbəbdən bankdan sadələşdirilmiş vergi ödənilməsinin tələb edilməsinin qanunauyğun olmaması ilə əsaslandırmışdır.

İş üzrə müstəqil tələb irəli sürməyən üçüncü şəxs Vergilər Nazirliyi isə apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, Vergi Məcəlləsinin 150.1.13-cü maddəsi yaşayış və qeyri-yaşayış, habelə torpaq sahələrinin açıq hərracda təqdim edilməsi zamanı sadələşdirilmiş verginin hesablanaraq tutulması öhdəliyini hərracın nəticələrini müvafiq protokolla təsdiq edən ixtisaslaşdırılmış təşkilatların üzərinə qoymuşdur. Mübahisələndirilən halda, bank əmlakı əldə edən, hərrac təşkilatı isə hərracın keçirilməsinə cavabdeh olan şəxs qismində çıxış etdiyindən, həmin əməliyyat zamanı ipoteka predmetinin faktiki satıcısı qismində heç bir subyekt iştirak etmir. Sadələşdirilmiş verginin ödəyicisi daşınmaz əmlakı təqdim edən (satıcı) olsa da, vergi məbləği məhz əmlakı əldə edənin həyata keçirdiyi ödənişdən tutulur. Bu baxımdan, vergi qanunvericiliyi sadələşdirilmiş verginin məhz ödəmə mənbəyində, yəni ödənişin forması və üsulundan asılı olmayaraq gəliri ödəyən şəxsdən (bankdan) tutulmasını, lakin bu vergi məbləğinin gəliri əldə edən, yəni əmlakı təqdim edən şəxsin hesabına aid edilməsini müəyyən etdiyindən, vergilər bank tərəfindən ödənilmədən hərracın nəticələrinin rəsmiləşdirilməsi mümkünsüzdür.

Müraciətdə, həmçinin qeyd edilmişdir ki, məsələyə dair müxtəlif yanaşmalardan biri hərraca çıxarılmış ipoteka predmetinin satılmaması, yəni hərracın baş tutmaması nəticəsində ipoteka saxlayanın əmlakı əldə etdiyi zaman ondan sadələşdirilmiş verginin tutulmasının, faktiki olaraq ipoteka saxlayanın sonradan əmlakı satarkən həmin vergini təkrar ödəmək məcburiyyətində qalmasına və bunun, kreditorun bir əmlak üzrə bir neçə dəfə eyni vergini ödəmək öhdəliyi ilə yüklü edilməsinə səbəb olmasıdır. Belə ki, "İpoteka haqqında" Qanunun 43.9-cu maddəsinə görə, hərraca çıxarılmış ipoteka predmeti ipoteka saxlayanın mülkiyyətinə keçirsə, ipoteka saxlayan xarakterinə və təyinatına görə ona məxsus ola bilməyən ipoteka predmetini özündə saxlamışsa, o, qanunvericiliklə müəyyən edilmiş qaydada bir il ərzində həmin əşyanı özgəninkiləşdirməlidir. Eləcə də nəzərə alınmalıdır ki, kreditin təminatsız qalmaması üçün ipoteka saxlayan əmlakı əldə etməyə məcburdur.

Müraciətedənin fikrincə, tutmanın ipoteka ilə yüklü edilmiş əmlaka yönəldilməsi haqqında məhkəmə qətnaməsi qanuni qüvvəyə mindiyi andan, ipoteka qoyan həmin əmlakı idarə etmək və barəsində sərəncam vermək imkanından məhrum olur ki, bu da onun hərrac əməliyyatında satıcı qismində iştirak etməsini istisna edir. Həmçinin hazırkı vəziyyətdə, yəni hərrac baş tutmadığından ipoteka saxlayanın ipoteka predmetini əldə etməsinə razılıq verməsinin hansı formada rəsmiləşdirilməsi müəyyən edilməmişdir. Bəzi hallarda tələbkara təklif olunan əmlak təhvil-təslim sənədi əsasında əldə edənə təqdim olunur, bu isə həmin əmlaka hüquqların rəsmiləşdirilməsini çətinləşdirir. Belə ki, "Daşınmaz əmlakın dövlət reyestri haqqında"

Azərbaycan Respublikası Qanununun (bundan sonra - "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanun) 8-ci maddəsində yalnız qanunla müəyyən edilmiş qaydada ixtisaslaşdırılmış təşkilatlar tərəfindən keçirilən açıq hərracın nəticələrinə dair yekun protokol daşınmaz əmlaka hüququn qeydiyyatı üçün əsas kimi nəzərdə tutulmuşdur.

Bakı Apellyasiya Məhkəməsinin qənaətinə əsasən, qanunverici yalnız baş tutmuş hərrac zamanı ödəmə mənbəyində vergi tutulması halını tənzimləmiş, mübahisələndirilən halda isə sadələşdirilmiş verginin ödənilməli olub-olmaması və ya kim tərəfindən ödənilməsi məsələsini nizamlamamış, bu isə öz növbəsində hakimlər arasında müxtəlif yanaşmaların mövcudluğuna və oxşar məsələlər üzrə müxtəlif qərarların qəbul edilməsinə səbəb olur.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə qaldırılan məsələlər ilə bağlı aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 73-cü maddəsinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur. Heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergiləri və başqa dövlət ödənişləri ödəməyə məcbur edilə bilməz.

Konstitusiya Məhkəməsi Plenumunun həmin maddəyə dair formalaşdırdığı hüquqi mövqeyə görə, vergi ödəmək vəzifəsi dövlətin şərtsiz tələbi kimi bütün vergi ödəyicilərinə şamil olunur. Vergiləri ödəmək (o cümlədən qanunvericiliklə müəyyən edilmiş müvafiq vaxtda və miqdarda) hər bir şəxsin konstitusiya vəzifələrindən biridir.

Vergi ödəyicisinin bu vəzifəsində cəmiyyətin bütün üzvlərinin ictimai maraqları öz əksini tapmışdır. Buna görə dövlət yalnız vergi ödəyicilərinin deyil, həmçinin cəmiyyətin digər üzvlərinin də hüquq və qanuni mənafelərinin qorunması məqsədilə vergi hüquq münasibətlərini tənzimləmək sahəsində qanuni tədbirlər görmək hüququna və vəzifəsinə malikdir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 78.3, 85.4, 90.3 və 93.1.1-ci maddələrinin şərh edilməsinə dair" 2011-ci il 12 yanvar tarixli Qərarı).

Konstitusiya Məhkəməsinin Plenumu məsələ ilə bağlı formalaşdırdığı çoxsaylı hüquqi mövqelərini təkrarlayaraq bir daha qeyd edir ki, dövlət və bələdiyyə büdcələrinin formalaşması mənbələri sırasında vergilərin xüsusi yeri və çəkisi vardır. Vergi münasibətlərini tənzimləmək yolu ilə dövlət özünün və bələdiyyələrin məqsəd və vəzifələrinin həyata keçirilməsini təmin edir. Büdcə sistemi ilə vergilər arasındakı mövcud əlaqələrin həcmi və möhkəmliyi dövlət və cəmiyyətdəki iqtisadi və sosial proseslərin inkişafına göstərdiyi təsirlə sıx bağlıdır. Dövlət məhz maliyyə resursları (o cümlədən vergi yığımları) hesabına iqtisadi, sosial, ekoloji və s. sahələrdəki funksiyalarının maliyyələşdirilməsi imkanına malik olur. Dövlət xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalması funksiyalarının həyata keçirilməsinin təmin edilməsi üçün qanunla müəyyən edilmiş vergiləri ödəməklə bağlı fiziki və hüquqi şəxslərin hüquqi vəzifələrini yaradır.

Qeyd olunmalıdır ki, Konstitusiyanın 94-cü maddəsinin I hissəsinin 15-ci bəndinə müvafiq olaraq, Azərbaycan Respublikasının Milli Məclisi (bundan sonra - Milli Məclis) maliyyə fəaliyyətinin əsasları, vergilər, rüsumlar və ödənişlərə dair ümumi qaydalar müəyyən edir. O, Konstitusiyanın 73-cü maddəsində nəzərdə tutulmuş konstitusiya vəzifəsinin lazımi

səviyyədə yerinə yetirilməsi üçün müstəqil olaraq vergitutmanın əsas elementlərini və vergilərin miqdarını, vergi ödəyicilərinin və vergitutma obyektlərinin tərkibini, vergi dərəcələrinin növlərini, vergi dövrünün davamlılığını, vergi bazasının müəyyənləşdirilməsi üçün gərəkli olan dəyər və kəmiyyət göstəricilərini, vergilərin hesablanma qaydasını və s. müəyyən edir.

Konstitusiya Məhkəməsinin Plenumu bir sıra qərarlarında qanunverici tərəfindən hər hansı ictimai münasibətlərin tənzimlənməsinə dair normativ-hüquqi aktlar qəbul edilərkən hüquqi müəyyənlik prinsipinə riayət edilməsinin vacibliyini vurğulamışdır.

Hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas aspektlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır. Bu, öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarını müdafiə edəcəyinə, hüquq tətbiqedənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir. Bunun əksi, yəni hüquq normasının məzmununun qeyri-müəyyənliyi hüquq tətbiqetmədə məhdudiyyətsiz mülahizə üçün imkan yaratmaqla, hər bir normativ-hüquqi aktın əsasında dayanmalı olan qanunun aliliyi, qanun və məhkəmə qarşısında bərabərlik və ədalət prinsiplərinin pozulmasına gətirib çıxara bilər ("Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinin və Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 180.3-cü maddəsinin müddəalarının şərh edilməsinə dair" 2008-ci il 22 sentyabr tarixli və "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59.1.9 və 60-cı maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2012-ci il 2 aprel tarixli Qərarlar).

Konstitusiya Məhkəməsinin Plenumu göstərilən mövqelərə əsaslanaraq qeyd edir ki, müvafiq qanunvericilik sahəsinin müddəalarının qeyri-müəyyənliyi həm vergi ödəyicilərinin hüquqlarının pozulmasına, həm də vergidən yayınma hallarına səbəb ola bilər. Məhz buna görə də adıçəkilən qanunvericilik sahəsi hər kəsin tələb olunan vergini nə vaxt və hansı qaydada ödəməli olduğuna dair tam və dəqiq məlumatlı olmasını mümkün edən səviyyədə qurulmalıdır. Bu zaman onu da nəzərə almaq lazımdır ki, vergi qanunvericiliyi aktlarındakı bütün ziddiyyətlər və anlaşılmazlıqlar vergi ödəyicisinin xeyrinə həll olunur. Belə ki, Vergi Məcəlləsinin 3.9-cu maddəsinə müvafiq olaraq, vergilər haqqında qanunvericilik elə tərzdə formalaşdırılmalıdır ki, hər kəs hansı vergiləri, hansı qaydada, nə vaxt və hansı məbləğdə ödəməli olduğunu dəqiq bilsin. Həmin Məcəllənin 3.11-ci maddəsinə uyğun olaraq isə vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamları, vergi ödəyicisinin xeyrinə şərh edilməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətedənin ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı sadələşdirilmiş verginin ödənilməsi qaydasının qanunvericilikdə tənzimlənməməsi dəlilinə aydınlıq gətirilməsi üçün məsələyə dair mövcud qanunvericilik normalarının nəzərdən keçirilməsini zəruri hesab edir.

Mülki Məcəllənin borclunun öhdəlikləri yerinə yetirməyi gecikdirməsinin nəticələrini tənzimləyən 319.1-ci maddəsində göstərilmişdir ki, əgər borclu icrasını təmin etmək üçün əşyanın ipotekaya verildiyi öhdəliklərin yerinə yetirilməsini gecikdirmişsə, ipoteka saxlayan ipoteka ilə yüklü edilmiş obyekti açıq hərracdan satmaq hüququna malikdir. Həmin Məcəllənin 319.3-cü

maddəsinə görə, ipoteka ilə yüklü edilmiş obyektin alıcısı satınalma qiymətini ödəməyə borcludur. İpoteka ilə yüklü edilmiş obyektin tutmaya yönəldilməsi xərcləri satınalma qiymətindən tutulur.

Vergi Məcəlləsinin 150-ci maddəsində ödəmə mənbəyində verginin tutulması qaydası müəyyən edilmişdir. Həmin Məcəllənin 2018-ci il 30 noyabr tarixində əlavə edilmiş 150.1.13-cü maddəsinə uyğun olaraq, qanunla müəyyən edilmiş hallar istisna olmaqla, yaşayış və qeyri-yaşayış sahələrinin, habelə torpaq sahələrinin açıq hərrac qaydasında təqdim edilməsi üzrə hərracın nəticələrini "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 8.0.2-ci maddəsində müəyyən olunmuş protokolla təsdiq edən ixtisaslaşdırılmış təşkilatlar ödəmə mənbəyində vergi tutmağa borcludur. Adıçəkilən maddədə istifadə edilən "malların təqdim edilməsi" müddəasının anlayışı Vergi Məcəlləsinin 13.2.10-cu maddəsində verilmişdir. Bu maddəyə görə, malların təqdim edilməsi - mallar üzərində mülkiyyət hüququnun başqasına verilməsi, habelə bunlarla məhdudlaşdırılmayan, malların satışı, mübadiləsi, hədiyyə verilməsi, natura şəklində əməkhaqqı ödənilməsi və natura şəklində digər ödəmələr, həmçinin girov qoyulmuş mallar üzrə mülkiyyət hüququnun girov saxlayana və ya digər şəxsə keçməsi, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin notarial qaydada təsdiq edilməklə, habelə notarial qaydada təsdiq edilmədən bağlanmış müqavilələr üzrə, həmçinin mənzil-tikinti kooperativi üzvlərinin ümumi yığıncağının qərarı ilə özgəninkiləşdirilməsidir.

Eyni zamanda, Vergi Məcəlləsinin 150.3-1-ci maddəsinə əsasən, notarius və ixtisaslaşdırılmış hərrac təşkilatları bu Məcəllənin 220.8-ci və 220.8-1-ci maddələrinə uyğun olaraq sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəyir və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə bəyannaməni vergi orqanına verməyə borcludur.

Maddələrin məzmunundan göründüyü kimi, yuxarıda göstərilən normalar yaşayış və qeyri-yaşayış sahələrinin hərrac qaydasında təqdim edilməsi zamanı verginin məhz ödəmə mənbəyində, yəni əmlakı əldə edənin həyata keçirdiyi ödənişdən tutulmasını nəzərdə tutur.

Hərrac baş tutmamış elan edildikdə isə ipoteka saxlayan ipoteka predmetini təkrar hərracdakı satış qiymətindən 25 faiz az olmayan qiymətlə ala bilər, bu şərtlə ki, ipoteka predmetinin ən aşağı satış qiyməti ən azı hüquqlarının qeydiyyat növbəliliyinə görə ipoteka predmetini satın alan ipoteka saxlayandan üstün olan digər ipoteka saxlayanların tələblərinin ödənilməsi üçün kifayət qədər olsun ("İpoteka haqqında" Qanunun 43.7-ci maddəsi).

Qeyd edilən halda əmlakı əldə edən tərəfindən ödəniş həyata keçirilmədiyindən yuxarıda göstərilən normaların tətbiqi mümkünsüz olur. Vergi ödənilməsi qaydasını tənzimləyən müvafiq qanunvericilik normalarına nəzər yetirildikdə, hərracın baş tutmaması səbəbindən əmlakın ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı vergilərin ödənilməli olub-olmaması məsələsini nizama salan normaların mövcud olmadığı aydın görünür. Eləcə də müvafiq məsələ araşdırılarkən ipoteka saxlayanın, bir çox hallarda məcburiyyət qarşısında qalaraq ipoteka predmetini alması, "İpoteka haqqında" Qanunun 43.9-cu maddəsinə uyğun olaraq, xarakterinə və təyinatına görə ona məxsus ola bilməyən ipoteka predmetini qanunvericiliklə müəyyən edilmiş qaydada bir il ərzində özgəninkiləşdirməli olması kimi hallar diqqəti cəlb edir.

Araşdırılan məsələ üzrə vacib məqamlardan biri də ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı rəsmiləşdirilmə qaydalarının qanunvericilikdə nəzərdə tutulmamasıdır. Bu isə təcrübədə həmin aktın müxtəlif üsullarla rəsmiləşdirilməsinə və əmlaka dair hüquqların müxtəlif sənədlər əsasında qeydə alınmasına səbəb olur. Halbuki "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 8-ci maddəsində və Mülki Məcəllənin 139-1-ci maddəsində daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsinin, başqasına keçməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) və xitam verilməsinin dövlət qeydiyyatı üçün konkret əsaslar sadalanmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu Klark Qordon Morrisin şikayəti üzrə 2017-ci il 26 may tarixli Qərarında qanunun aydın olması tələbi ilə bağlı qeyd etmişdir ki, qanunun aydın və proqnozlaşdırıla bilən olması hüquqi dövlətin vacib təzahürlərindən biri olan qanunun ümumiliyini təmin etmək zərurəti ilə uzlaşmalıdır. Nəzərə almaq lazımdır ki, qanunun mətninin mütləq aydınlığı (qanunvericinin bütün mümkün ola biləcək həyati halları qanunda nəzərdə tutması) qeyri-realdır. Bu səbəbdən qanunda ümumi anlayışlardan istifadə edilməsi qaçılmazdır.

Bu baxımdan, hüquqi normaların bəzən qaçılmaz olan natamamlığı və ya qeyri-müəyyənliyi məhz məhkəmə təcrübəsi vasitəsi ilə aradan qaldırılır (Konstitusiya Məhkəməsi Plenumunun R.Cəfərovun şikayəti üzrə 2012-ci il 18 may tarixli Qərarı).

Bu zaman məhkəmə təcrübəsində normativ-hüquqi aktların müddəaları onların konstitusiya hüquqi mənasına uyğun tətbiq olunmalıdır (Konstitusiya Məhkəməsi Plenumunun "M.Məmmədovun şikayəti əsasında Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 55-ci maddəsinin bəzi müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 2014-cü il 29 aprel tarixli Qərarı).

Lakin onu da nəzərə almaq lazımdır ki, bəzən fərqli üsullardan (metodlardan) istifadəyə əsaslanan məhkəmə təfsiri nəticəsində hüququn tətbiqinin müxtəlif variantlarının formalaşması mümkündür. Həmin variantların hər biri isə ayrı-ayrılıqda Konstitusiyanın yol verdiyi fərqli hüquqi tənzimləmə modeli çərçivəsində hüquqi cəhətdən əsaslandırılmış sayıla bilər.

Bu vəziyyətdə müvafiq qanunun həqiqi məzmununun müəyyən edilməsinin ən doğru yolu hakimiyyətlərin bölünməsi prinsipinin tələblərinə əsaslanaraq (Konstitusiyanın 7-ci maddəsinin III hissəsi), normanın qanunverici orqan tərəfindən dəqiqləşdirilməsindən ibarətdir. Vergitutma sahəsində isə bu mövqe həm də Konstitusiyanın 73-cü maddəsindən irəli gəlir. Bu maddənin mənasına görə yalnız qanunla müəyyən edilmiş əsaslarla vergiləri tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.

Yuxarıda göstərilənləri, habelə müraciətdə qaldırılan məsələyə dair məhkəmə təcrübəsində olan fərqli yanaşmaların mövcudluğunu nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, ipoteka saxlayanın məhkəmə qaydasında təmin olunmuş tələbi əsasında, icra məmurunun hərrac təşkilatına verdiyi şifarişi ilə keçirilən təkrar hərracın baş tutmaması nəticəsində ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı ödəmə mənbəyində tutulması tələb olunan sadələşdirilmiş verginin ödənilməsi qaydaları qanunverici tərəfindən aydın şəkildə tənzimlənməlidir.

Qeyd olunduğu kimi, bu zaman qanunverici vergitutmanın əsas elementlərini və vergilərin miqdarını, vergi ödəyicilərinin və vergitutma

obyektlərinin tərkibini, vergi dərəcələrinin növlərini, vergi dövrünün davamlılığını, vergi bazasının müəyyənləşdirilməsi üçün gərəkli olan dəyər və kəmiyyət göstəricilərini, vergilərin hesablanma qaydasını və s. müəyyən edərkən kifayət qədər geniş mülahizə sərbəstliyinə malikdir.

Oxşar hüquqi mövqelər İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra - Avropa Məhkəməsi) qərarlarında da əks olunmuşdur. Məhkəmə dəfələrlə qeyd etmişdir ki, Tərəf Dövlətlər öz vergi siyasətlərini formalaşdıraraq və həyata keçirərək, vergilərin ödənilməsini təmin etmək üçün hazırlıq görmək məqsədi ilə müəyyən mülahizə sərbəstliyinə malikdirlər (Gasus Dosier-und Fördertechnik GmbH Niderlanda qarşı iş üzrə 1995-ci il 23 fevral tarixli, N.K.M. v. Macarıstana qarşı iş üzrə 2013-cü il 14 may tarixli, §65 və Microintelect OOD Bolqarıstana qarşı iş üzrə 2014-cü il 4 mart tarixli, §42 Qərarlar).

Bununla belə, qanunvericinin qeyd edilən mülahizə sərbəstliyi hədsiz deyil və Konstitusiyada təsbit olunmuş tələblərlə, o cümlədən Konstitusiyanın 25-ci maddəsinin I hissəsində və 71-ci maddəsinin II hissəsində əks olunmuş bərabərlik və mütənasiblik prinsipləri ilə məhdudlaşdırılır.

Konstitusiyanın 25-ci maddəsinin müvafiq müddəaları ilə birlikdə götürülən 73-cü maddəsinin mənası ondan ibarətdir ki, vergitutmanın hüquqi tənzimlənməsi konstitusiya prinsipi olan, vergilərin müəyyən edilməsi zamanı hər cür ayrı-seçkiliyi istisna edən bərabərlik prinsipinə əsaslanmalıdır. Bu prinsip Vergi Məcəlləsinin 3.6-cı maddəsində də əks olunmuşdur.

Ayrı-ayrı vergi ödəyicilərinin eyni iqtisadi göstəricilərə malik olması onlara qarşı eyni vergi nəticələrinin baş verməsinə səbəb olmalıdır. Nəzərə almaq lazımdır ki, vəziyyəti bərabər və ya oxşar olan subyektlər üçün fərqli hüquqi nizamlamanın nəzərdə tutulması, əgər bunun üçün obyektiv və ağlabatan əsas yoxdursa, həmin hüquqi vəziyyətin bərabərlik prinsipinin pozulması kimi qiymətləndirilir (Konstitusiya Məhkəməsi Plenumunun "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 37.3.4-cü maddəsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" 2014-cü il 14 noyabr tarixli Qərarı).

Bununla yanaşı nəzərə alınmalıdır ki, vergi öhdəlikləri iqtisadi fəaliyyətlə şərtlənir və həmin öhdəliklərin yaranmasından əvvəl, bir qayda olaraq, müvafiq şəxslərin digərləri ilə mülki hüquqi münasibətlərə daxil olması baş verməlidir. Gələcək vergi öhdəlikləri məhz həmin münasibətlərdən irəli gəlir və ya onlarla yaxından əlaqəlidir. Başqa sözlə, vergitutma sahəsində qanunvericilik mülahizəsi həm də vergitutma və təsərrüfat fəaliyyəti arasındakı əlaqə ilə şərtlənir.

Buna görə də, qanunverici, müvafiq hüquqi tənzimləməni həyata keçirərkən, Konstitusiyanın 13 və 29-cu maddələrinin, habelə 71-ci maddəsinin II hissəsinin mənasına görə, təkcə dövlətin iqtisadi təhlükəsizliyi ilə bağlı olan publik maraqlarından deyil, mülki hüquq münasibətlərinin iştirakçısı olan fiziki və hüquqi şəxslərin maraqlarından da çıxış etməlidir. Nəticədə cəmiyyətin maraqlarının qorunması ilə şəxsiyyətin əsas hüquqları arasındakı nisbətin qorunması və Konstitusiyanın müdafiə etdiyi dəyərlər arasında ədalətli tarazlığın yaradılması mümkün olar.

Məsələyə dair oxşar hüquqi mövqelər Avropa Məhkəməsinin qərarlarında da əks olunmuşdur. Məhkəmə qeyd etmişdir ki "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddə-

si müdaxilənin, o cümlədən vergitutma sahəsində, qarşıya qoyulmuş məqsədə ağlabatan şəkildə mütənasib olmasını da tələb edir. Müvafiq olaraq, hüquq və azadlıqlara istənilən müdaxilə cəmiyyətin ümumi maraqları ilə fərdi şəxsin fundamental hüquqlarının müdafiəsi tələbləri arasında "ədalətli tarazlığa" cavab verməlidir. Tələb edilən ədalətli tarazlığa nail olmaq üçün müvafiq şəxs fərdi və həddən artıq yükə məruz qalmamalıdır (Iwaszkiewicz Polşaya qarşı iş üzrə 2011-ci il 26 iyul tarixli, §44; "Bulves" AD Bolqarıstana qarşı iş üzrə 2009-cu il 22 yanvar tarixli Qərarlar).

Digər dövlətlərin konstitusiya mühakimə orqanlarının təcrübəsində də (Fransa Respublikası Konstitusiya Şurasının 2007-ci il 16 avqust tarixli Qərarı, no. 2007-555 DC; Almaniya Federal Konstitusiya Məhkəməsinin 2016-cı il 18 yanvar tarixli qərardadı, 2 BvR 2194/99) analoji mövqelərə rast gəlinir.

Qeyd olunduğu kimi, keçirilmiş təkrar hərrac baş tutmamış elan edildiyi halda sadələşdirilmiş verginin ödənilməli olub-olmaması və ya kim tərəfindən ödənilməli olması mövcud qanunvericilik normaları ilə tam nizamlanmadığından, Konstitusiya Məhkəməsinin Plenumu müvafiq şərhlə məsələnin tənzimlənməsini qeyri-mümkün hesab edir. Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu vergilərin dövlətin iqtisadi və sosial proseslərin inkişafına göstərdiyi təsiri, iqtisadi vəziyyəti, eləcə də məhkəmələrdə bu qəbildən olan çoxsaylı işlərin baxılmasının dayandırılmasını nəzərə alaraq qeyd etməyi vacib hesab edir ki, göstərilən məsələlərin qanunvericilikdə mümkün qədər qısa müddət ərzində tənzimlənməsi zəruridir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

- ipoteka saxlayanın məhkəmə qaydasında təmin olunmuş tələbi əsasında keçirilmiş təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı sadələşdirilmiş verginin ödənilməsi qaydalarının bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla mümkün qədər qısa müddət ərzində tənzimlənməsi Milli Məclisə tövsiyə edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. İpoteka saxlayanın məhkəmə qaydasında təmin olunmuş tələbi əsasında keçirilmiş təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə edilməsi zamanı sadələşdirilmiş verginin ödənilməsi qaydalarının bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla mümkün qədər qısa müddət ərzində tənzimlənməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr: Fərhad Abdullayev**

*Bakı şəhəri, 23 iyul 2020-ci il*

# QANUNÇULUQ

## hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Qaynar xətt: (+99412) 539-76-75
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb
səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1861 Tiraj:1100 ədəd